**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-ci ilin II rübü üzrə iş fəaliyyətinin yekunlarına dair

# HESABATI


**Məsul şəxs: Aparatın rəhbəri** **Q.Bayramov**

**İcraçı: Koordinator** **A.Seyidəliyeva**


**BAKI-2015**

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**2015-ci ilin II rübü üzrə iş fəaliyyətinin yekununa dair**

# H E S A B A T I

Auditorlar Palatasının struktur bölmələri öz fəaliyyətində "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nı, Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planını rəhbər tutaraq hesabat dövrü ərzində aşağıdakı bölmələr üzrə xeyli işlər görmüşdür:

## I. Auditorlar Palatasının 2015-ci ilin II rübü üzrə iş planında nəzərdə tutulmuş işlərin hesabat dövründə icrası

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.2.1-ci "Auditor fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanun layihəsinin müzakirəsi və təqdimatı" bəndinin icrası ilə əlaqədar 2015-ci ilin 23 yanvar tarixində Auditorlar Palatasında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Ədliyyə, Vergilər, İqtisadiyyat və Sənaye Nazirliklərinin, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin, Mərkəzi Bankın nümayəndələrinin iştirakı ilə keçirilmiş dəyirmi masada həmin qurumların "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanun layihəsinə dair verdikləri təklif və tövsiyələr nəzərə alınmaqla həmin qanun layihəsi Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən Palatanın Şurasında müzakirə olunmaq məqsədilə 2015-ci ilin iyun ayında təqdim edilmiş və 2015-ci ilin 22 iyun tarixində Palatanın Şurasında müzakirə olunaraq müvafiq qərar qəbul edilmişdir. Hal-hazırda həmin Qanun layihəsi üzərində işlər davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.2.5-ci "Auditorlar Palatasının fəaliyyətinə nəzarət sisteminin işlənib hazırlanması" bəndinin icrası ilə əlaqədar Beynəlxalq audit qurumlarının normativ hüquqi bazası və təcrübələri öyrənilməklə Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi M.Abbasov tərəfindən hazırlanmış " Azərbaycan Respublikasının Auditorlar Palatasının fəaliyyətinə ictimai

nəzarətə dair" Əsasnamənin layihəsi baxılmaq üçün 2015-ci ilin 28 iyun tarixində xidməti məktubla Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir. Hal-hazırda həmin layihə üzrə işlər davam etdirilir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.4-cü "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndinin icrası ilə əlaqədar 16.12.2014-cü il tarixdə təsdiq edilmiş Plan-proqrama əsasən, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən 2-ci "Audit Komitəsi haqqında nümunəvi Əsasnamənin hazırlanması" və 4-cü "Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ-metodik bazanın yaradılması" bəndləri icra olunmuş və baxılmaq üçün 29.06.2015-ci il tarixdə Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.7-ci "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatların təhlili və tövsiyələrin hazırlanması" bəndinin icrası ilə əlaqədar Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Analitik informasiya və təhlil şöbəsinin müdiri R.Cəfərli ilə birgə tövsiyələr hazırlanmış və baxılmaq üçün 2015-ci ilin 13 may tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilməklə 2015-ci ilin 26 may tarixində Palatanın Şurasında müzakirə edilərək 263/5 saylı qərar qəbul edilmişdir.

Auditorlar Palatasının 2012-2015-ci illər üzrə iş planının 1.12-ci "Audit sistemində hesabatlılığın təkmilləşdirilməsi" bəndinin icrası ilə əlaqədar Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təkliflər hazırlanaraq baxılmaq üçün 2015-ci ilin 29 iyun tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.15-ci "Palatanın rəsmi internet səhifəsinin imkanlarının və funksiyalarının genişləndirilməsi vasitəsilə maarifləndirmə və məlumatlandırma, habelə interaktiv sorğuların aparılması" bəndinin icrası ilə əlaqədar Palatanın internet səhifəsi genişləndirilərək 18 bölmədən 23 bölməyə çatdırılmış və interaktiv sorğuların aparılması işi təşkil edilmiş, müntəzəm olaraq maarifləndirmə və məlumatlandırma istiqamətində işlər davam etdirilir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 2015-ci il 21 may tarixli dərkənar-göstərişinə əsasən, Aparatın rəhbəri Q.Bayramov Sədrin elmi-metodik məsələlər üzrə

müşaviri N.Talıbovun və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədovun Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.16-cı "Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin hazırlanması" bəndinin icrası ilə bağlı hazırladıqları təkliflərə dair 2015-ci il 20 may tarixli xidməti məktubla tanış olmuşdur.

Həmin bəndin icrası ilə əlaqədar xidməti məktubda 3 təklif qeyd olunmuş və həmin təkliflərin reallaşmasına dair plan-qrafik tərtib edilmiş və həmin qrafikdə təkliflərin ikisinin icrası 2016-cı ildə nəzərdə tutulmuşdur. Halbuki, Palatanın iş planında həmin bəndin icra müddəti 2015-ci ilin III rübü ərzində müəyyən edilmişdir. Əvvəlcə xarici təcrübə öyrənilməklə könüllü və əlaqədar xidmətlərin növləri və onları tənzimləyən normativ sənədlərin adları müəyyən edilməli və sonra həmin xidmətlərin genişləndirilməsi üçün tədbirlər sistemi hazırlanmalıdır. Bunlar başa çatdıqdan sonra maarifləndirmə tədbirləri həyata keçirilə bilər və bu sahələr üzrə mövzular auditorların ixtisasartırma kurslarının proqramına daxil edilə bilər.

O, qeyd etmişdir ki, iş planının bu bəndi 3.7-ci "Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması" bəndi ilə sıx əlaqədardır. İş planının 3.7-ci bəndinin icrası ilə bağlı müvafiq plan-proqramda hazırlanıb təsdiq edilmişdir. İş planının 1.16-cı və 3.7-ci bəndlərinin icrası ilə işlər paralel olaraq aparılmalıdır. Yekunda onların nəticələrini də birləşdirmək olar.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Q.Bayramov 22.05.2015-ci il tarixli xidməti məktubla təklif etmişdir ki, həmin bəndlərin icrası ilə əlaqədar olan tədbirlər sistemi yenidən və keyfiyyətlə hazırlansın.

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin yanında 2015-ci il 21 may tarixində müzakirə təşkil edilmiş, müvafiq protokol və qərar tərtib edilmiş və 2015-ci il 21 may tarixində Palatanın sədri V.Novruzova baxılmaq üçün təqdim edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.17-ci "Auditdə qiymətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi" bəndinin icrası ilə əlaqədar xarici təcrübə öyrənilmiş və bu iş 2015-ci ilin III rübündə başa çatdırılacaqdır.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.19-cu "2014-cü il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinin icrası ilə əlaqədar Sədrin

Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən materiallar hazırlanmış və 2015-ci ilin 26 may tarixində Palatanın Şurasında müzakirə edilərək 263/2saylı qərar qəbul edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.25-ci "Auditin statistik göstəricilər sisteminin tətbiqi" bəndinin icrası ilə əlaqədar 09.01.2015-ci il tarixdə təsdiq olunmuş plan-proqrama əsasən, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov, Analitik informasiya və təhlil şöbəsinin müdiri R.Cəfərli tərəfindən Auditin statistik göstəricilər sisteminin tətbiqinə dair şərhlər və cədvəllər hazırlanmış və auditor təşkilatlarına və sərbəst auditorlara göndərilmişdir. Hal-hazırda məlumatların əldə olunması və ümumiləşdirilməsi üzrə işlər davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.27-ci "Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı tədbirlərin görülməsi" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının sədri cənab V.Novruzovun rəhbərliyi ilə Palatanın müvafiq müvafiq struktur bölmələri ilə birlikdə xarici ölkələrin təcrübələri öyrənilərək, "Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı tədbirlərin görülməsinə dair" hesabat hazırlanmış və 2015-ci ilin 30 iyun tarixində Auditorlar Palatasında təşkil edilmiş Dəyirmi masada Palatanın Şurası yanında Komitələrin sədrlərinin və Palatanın struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə müzakirə olunaraq müvafiq qərar qəbul edilmişdir. Hal-hazırda həmin məsələ üzrə işlər davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 2.3-cü "Milli auditor təşkilatları üçün nümunəvi firmadaxili audit standartlarının hazırlanması" bəndinin icrası ilə əlaqədar 30.12.2014-cü il tarixdə təsdiq olunmuş Plan-proqrama əsasən, xarici ölkələrin təcrübəsi öyrənilmiş və bu iş 2015-ci ilin III rübündə başa çatdırılacaqdır.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 2.4.1-ci "Beynəlxalq audit standartlarının 2013-cü il üzrə versiyasının tərcüməsi " və 2.4.2-ci "IFAC-ın Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tərcüməsi" bəndlərinin icrası ilə əlaqədar həmin standartlar və Məcəllə ingilis dilindən azərbaycan dilinə tərcümə edilmiş və hal-hazırda peşə və ədəbi redaktə işləri davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 3.7-ci "Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması" bəndinin icrası ilə əlaqədar 05.01.2015-ci il tarixdə təsdiq olunmuş Plan-proqrama əsasən, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov tərəfindən metodik göstəriş hazırlanmış və Palatanın Şurasında müzakirə olunmaq üçün 2015-ci ilin 29 iyun tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 5.4-cü "IFAC, EFFA və digər beynəlxalq qurumların keçirdiyi sorğularda iştirak edilməsi" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatası müntəzəm olaraq həmin peşəkar qurumların keçirdiyi sorğularda iştirak edir və bu işlər hal-hazırda davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 7.1-ci " IFAC, EFAA və digər beynəlxalq qurumların yeniliklərinin Palatanın internet səhifəsində yerləşdirilməsi" bəndinin icrası ilə əlaqədar IFAC-ın Beynəlxalq audit standartları, onların şərhi, Peşəkar Mühasiblərin Etika Məcəlləsinin son versiyası, həmin qurumların yenilikləri mütəmadi olaraq Palatanın internet səhifəsində yerləşdirilir. Auditorlar Palatası tərəfindən IFAC-ın, EFFA-nın və digər beynəlxalq qurumların sorğuları cavablandırılır və bu istiqamətdə işlər davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 7.3-cü "Auditorlar Palatasının internet səhifəsinin təkmilləşdirilməsi və onun fasiləsiz fəaliyyətinin təmin edilməsi" bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi ilə Auditorlar Palatası arasında bağlanmış müqaviləyə əsasən, Palatanın "audit.gov.az" internet resursunun auditi aparılmış və aşkar olunmuş çatışmazlıqlar müvafiq sertifikata malik olan, "İnfosecurity" şirkəti tərəfindən aradan qaldırılmışdır. Palatanın internet səhifəsi müntəzəm olaraq təkmilləşdirilir və onun fasiləsiz fəaliyyəti azərbaycan, ingilis və rus dillərində mütəmadi təmin edilir. Palatanın 23 bölmədən ibarət internet səhifəsində 2015-ci ilin I rübü ərzində 69 halda Palatanın 2015-2017-ci illər üzrə iş planı, Palata Şurasının qərarları, Palata sədrinin əmr və sərəncamları, xəbərlər, elanlar, yeniliklər, yubiley tədbirləri və s. materiallar yerləşdirilmişdir (siyahı əlavə olunur).

Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 7.4-cü “Auditorlar Palatasının internet səhifəsində interaktiv sorğunun aparılması” bəndinin icrası ilə əlaqədar Palatanın internet səhifəsində interaktiv sorğu aparılır və icrası davam etdirilir.

Auditorlar Palatasının 2015-2017-cı illər üzrə iş planının 7.5-ci “Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatların yeniləşdirilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi” bəndinin icrası ilə əlaqədar olaraq auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatlar Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən müntəzəm olaraq yeniləşdirilir və Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərov tərəfindən Palatanın internet səhifəsində yerləşdirilir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 8.6-cı “Auditorlar Palatası Şurasının qərarlarının və auditin inkişafı ilə əlaqədar mühüm sənədlərin ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi” bəndinin icrası ilə əlaqədar Palata Şurasının qərarları, Palata sədrinin sərəncamları, əmrləri və digər mühüm əhəmiyyət kəsb edən sənədlər azərbaycan, ingilis, rus dillərində mütəmadi olaraq Palatanın internet səhifəsində yerləşdirilir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.1-ci “Auditorlar Palatasının struktur bölmələrinin 2014-cü il üzrə iş fəaliyyətinin yekununa dair hesabatların hazırlanması” və 9.3-cü “Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması” bəndlərinə və Palata Şurasının 2012-ci il 18 dekabr tarixli 238/7 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturu, hazırlanması və nəşri haqqında” Təlimata uyğun olaraq Palatanın struktur bölmələrinin təqdim etdikləri materiallar əsasında İşçi qrupu tərəfindən hazırlanmış Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat Palatanın sədri cənab V.Novruzovun yanında keçirilən 2015-ci il 05 mart tarixli iclasda (protokol № 3) qeyd olunan irad və təkliflər nəzərə alınmaqla yenidən işlənib hazırlanmış və Palatanın Şurasında müzakirə olunmaq üçün 2015-ci ilin 11 mart tarixində xidməti məktubla Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair 2015-ci ilin 14 aprel tarixində Palatanın Şurasında müzakirə edilərək 261/1 saylı qərar qəbul edilmişdir. Həmin qərara əsasən, hesabat təsdiq edilmiş, iş planında nəzərdə tutulan bəndlərin vaxtında və keyfiyyətlə icra edilməsi müsbət iş kimi qiymətləndirilmiş, bir sıra hallarda icra edilməməsi məsul icraçıların nəzərinə çatdırılmış, hesabat ingilis dilinə tərcümə edilmiş, Palatanın internet səhifəsində yerləşdirilmiş və hesabatın icmalı "İqtisadiyyat" qəzetinin 2015-ci il 1-7 may tarixli nömrəsində dərc etdirilmişdir. Həmin hesabat nəşr olunduqdan sonra tanış olmaq məqsədilə müvafiq qurumlara və xarici təşkilatlara göndərilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.5-ci "Auditorlar Palatasında daxili nəzarətin həyata keçirilməsi" bəndinin icrası ilə əlaqədar olaraq Aparatın koordinatoru A.Seyidəliyeva tərəfindən müvafiq qaydada 2015-ci ilin II rübü üzrə hesabat hazırlanmış və 2015-ci ilin 03 iyul tarixində Palatanın sədri V. Novruzova baxılmaq üçün təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.6-cı "Struktur bölmələrin 2015-ci il üzrə fəaliyyəti barədə rüblük hesabatların hazırlanması, onların təhlili və tövsiyələrin verilməsi" bəndinin icrasını təmin etmək məqsədilə Aparatın rəhbəri Q.Bayramov, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov, Sədrin müşaviri F.Qarayev və Aparatın koordinatoru A.Seyidəliyeva tərəfindən hazırlanmış Auditorlar Palatasının 2015-ci ilin I rübü üzrə iş fəaliyyətinin yekununa dair hesabat baxılmaq üçün 07.04.2015-ci il tarixdə Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin yanında 2015-ci il 10 aprel tarixində "Auditorlar Palatasının 2015-ci ilin I rübü üzrə iş fəaliyyətinin yekununa dair hesabat" barədə müzakirə təşkil edilmiş, müvafiq protokol tərtib edilmiş və 2015-ci il 10 aprel tarixində Palatanın sədri V.Novruzova baxılmaq üçün təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.3-cü "Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndinə və Palata Şurasının 2012-ci il 18 dekabr tarixli 238/7 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan

Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturu, hazırlanması və nəşri haqqında" Təlimata uyğun olaraq İşçi qrupu tərəfindən hazırlanmış Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat Auditorlar Palatasının sədri cənab V.Novruzovun yanında keçirilən 2015-ci il 05 mart tarixli iclasda (protokol № 3) qeyd olunan irad və təkliflər nəzərə alınmaqla yenidən işlənib hazırlanaraq baxılmaq üçün 05.05.2015-ci il tarixli xidməti məktubla Palata sədri cənab V.Novruzova təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin yanında 2015-ci il 6 may tarixində "Aparatın əməkdaşları tərəfindən 2015-ci ilin dörd ayı ərzində görülən işlərin hesabatı" barədə müzakirə təşkil edilmiş, müvafiq protokol tərtib edilmiş və 2015-ci il 6 may tarixində Palatanın sədri V.Novruzova baxılmaq üçün təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.3-cü "Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndinə və Palata Şurasının 2012-ci il 18 dekabr tarixli 238/7 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturu, hazırlanması və nəşri haqqında" Təlimata uyğun olaraq İşçi qrupu tərəfindən hazırlanmış Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabatın nəşr edilmiş variantı baxılmaq və müvafiq qurumlara göndərilməsi məqsədilə 22.05.2015-ci il tarixdə Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.5-ci "Auditorlar Palatasında daxili nəzarətin həyata keçirilməsi" bəndinə müvafiq olaraq 2015-ci ilin aprel ayı üzrə hesabat hazırlanmış və 2015-ci il 05 may tarixində, may ayı üzrə hesabat hazırlanmış və 2015-ci il 04 iyun tarixində, iyun ayı üzrə hesabat hazırlanmış və 2015-ci il 03 iyul tarixində Palatanın sədri V.Novruzova baxılmaq üçün təqdim edilmişdir.

Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 3.4-cü "Auditorların korrupsiyaya qarşı mübarizəyə aparan orqanlarla əmakdaşlığın gücləndirilməsi" və 3.5-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" bəndlərinə uyğun olaraq

Azərbaycan Respublikasının Auditorlar Palatası, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinin və Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin birgə təşkilatçılığı ilə 2015-ci ilin aprel ayının 30-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizədə auditin qarşısında duran problemlər və onun həlli yolları" mövzusunda konfrans keçirilmişdir. Bununla əlaqədar olaraq Palatanın saytında yerləşdirilməsi məqsədi ilə elan hazırlanmış, Palatanın saytında yerləşdirilməsi təmin edilmişdir, konfransın plan-proqramı, press-relizi hazırlanmış, həmçinin həmin qurumlara və KİV-ə məktublar göndərilmişdir.

Auditorlar Palatasının 2015-ci il üzrə iş planının 1.2.3-cü "Auditorlar Palatasının statusunun beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması" bəndinə uyğun olaraq, 2015-ci il 01 may tarixində Kadr hazırlığı şöbəsi tərəfindən "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsinə daxil edilməsi üçün hazırlanmış təkliflər baxılması üçün rəhbərliyə təqdim edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.2.4-cü "Auditor xidməti sahəsində qadağalar və sanksiyalar sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi" bəndinə uyğun olaraq, idarə tərəfindən beynəlxalq təcrübə öyrənilmiş, materiallar əldə edilmiş və tərcümə edildikdən sonra baxılması üçün 2015-ci il 31 mart tarixində xidməti məktubla rəhbərliyə təqdim edilmişdir. Hal-hazırda bu bəndin icrası ilə bağlı işlər davam etdirilir.

Palatanın 2015-ci illər üzrə iş planının 1.16-cı "Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin hazırlanması" bəndinə uyğun olaraq, təkliflər hazırlanmış və 2015-ci il 20 may tarixində xidməti məktubla rəhbərliyə təqdim edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.21-ci "Xarici ölkələrin mühasibat və audit qurumları ilə əməkdaşlıq sazişlərinin bağlanması" bəndinin icrasının təmin edilməsi məqsədilə, təsdiq olunmuş plan-proqramın 1-ci "Xarici ölkələrin audit və mühasibatlıq qurumları ilə əməkdaşlıq etmək məqsədilə müraciət məktubunun, saziş layihəsinin hazırlanması və göndərilməsi" bəndinə uyğun olaraq, Beynəlxalq əlaqələr şöbəsi tərəfindən 2015-ci il 15 yanvar tarixində ilkin olaraq xarici ölkələrin 5 mühasibat və audit qurumlarına məktublar və əməkdaşlıq barədə saziş layihələri göndərilmişdir. Sonradan

onlarla əlaqə yaradılması üçün müxtəlif vaxtlarda əlavə məktublar göndərilmişdir. O cümlədən, Bosniya-Herseqovinanın Mühasiblər, Auditorlar və Maliyyə İşçiləri Assosiasiyası ilə 05.01.2015-ci il, 06.02.2015-ci il, 09.02.2015-ci il, 18.02.2015-ci il, 01.04.2015-ci il, 16.04.2015-ci il, 22.04.2015-ci il, 20.05.2015-ci il, 22.05.2015-ci il tarixlərində yazışmalar və telefon danışıqları aparılmış və müsbət cavab əldə olunmuşdur. Anlaşma Memorandumunun imzalanması tarixi Bosniya-Herseqovinanın Mühasiblər, Auditorlar və Maliyyə İşçiləri Assosiasiyasının Şurasında müzakirə olunmaqdadır. Müzakirə olunduqdan sonra memorandumun imzalanması ilə bağlı qərar veriləcəkdir. Belarusiya Sertifikatlı Mühasiblər və Auditorlar Federasiyası ilə 01.04.2015-ci il, 05.01.2015-ci il, 04.02.2015-ci il, 18.02.2015-ci il, 31.03.2015-ci il, 04.02.2015-ci il, 01.04.2015-ci il, 17.04.2015-ci il tarixlərində yazışmalar aparılmış və müsbət cavab əldə olunmuşdur. Anlaşma memorandumunun imzalanması ilə bağlı iyul-avqust aylarında razılaşma əldə edilmişdir. İmzalanmanın Bakı şəhərində baş tutacağı barədə qərar qəbul edilmişdir. Qırğızıstan Respublikası Hökuməti yanında Maliyyə bazarının tənzimlənməsi və nəzarəti üzrə dövlət xidməti ilə 05.01.2015-ci il, 19.01.2015-ci il, 29.01.2015-ci il, 18.02.2015-ci il, 01.04.2015-ci il,13.05.2015-ci il tarixlərində yazışmalar və telefon danışıqları aparılmış və müsbət cavab əldə olunmuşdur. Anlaşma memorandumunun imzalanması tarixi Qırğızıstan Respublikası Hökuməti yanında Maliyyə bazarının tənzimlənməsi və nəzarəti üzrə dövlət xidmətinin Şurasında müzakirə olunmaqdadır. Müzakirə olunduqdan sonra memorandumun imzalanması ilə bağlı qərar qəbul ediləcəkdir. Lakin Beynəlxalq Mühasiblər Şəbəkələrinin və Assosiasiyalarının Avropa Qrupu (EGIAN) və Hindistan Andlı Mühasiblər İnstitutu ilə dəfələrlə yazışmalar aparılmasına baxmayaraq bu günə qədər onlardan cavab alınmamışdır. Hal-hazırda Beynəlxalq əlaqələr şöbəsi tərəfindən həmin bəndin icrası ilə bağlı işlər davam etdirilir.

Palatanın 2015-ci il üzrə iş planının 1.22-ci “Auditor andının içilməsi prosedurlarının hazırlanması” bəndinə uyğun olaraq, 2015-ci il 06 aprel, 2015-ci il 15 aprel, 2015-ci il 01 may və 2015-ci il 09 iyun tarixlərində Auditin təşkili və akkreditasiya şöbəsi tərəfindən auditorların andiçmə mərasimi təşkil edilmişdir. Tədbirlə bağlı materiallar Palatanın internet səhifəsində yerləşdirilmişdir. Hal-hazırda bu istiqamətdə işlər idarə tərəfindən davam etdirilməkdədir.

Palatanın 2015-ci il üzrə iş planının 1.24-cü "Auditorlar Palatasının assosiativ və fəxri üzvlüyün təşkili" bəndinə uyğun olaraq, idarə tərəfindən xarici audit və mühasibatlıq qurumlarının internet səhifəsində beynəlxalq təcrübə nəzərə alınmaqla materiallar əldə edilmiş və I rübdə baxılması üçün rəhbərliyə təqdim edilmiş materiallar Auditin təşkili və akkreditasiya şöbəsi tərəfindən tərcümə olunmaqla, "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında" Əsasnamənin layihəsi hazırlanmış və 2015-ci il 25 may tarixində xidməti məktubla rəhbərliyə təqdim edilmişdir. Həmin Əsasnamə Auditorlar Palatası Şurasının 2015-ci il 26 may tarixli iclasında müzakirə edilərək özünün 263/1 saylı qərarı ilə təsdiq edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.27-ci "Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı tədbirlərin görülməsi" bəndinə uyğun olaraq, idarə tərəfindən 2015-ci il 30 iyun tarixində məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı tədbirlərin görülməsinə dair hesabatın müzakirəsi "Dəyirmi masa" formatında təşkil edilmişdir. Tədbirdə "ANR AUDİT" MMC-nin direktor-auditoru, Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Standartlar üzrə Komitənin sədri Namiq Abbaslı, "MAK Azərbaycan LTD" MMC-nin direktor-auditoru, Auditorlar Palatasının Şurası yanında Milli auditə dəstək üzrə Komitənin sədri Zamin Hüseynov, "HLB Azərbaycan" MMC-nin direktor-auditoru, Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət Komitəsinin sədri İslam Bayramov, "Balans Audit"- Məsləhət firmasının direktor-auditoru Əli Nəbiyev, Sərbəst auditor, Auditorlar Palatasının Şurası yanında Qanunvericilik və hüquqi məsələlər üzrə Komitənin sədri Elnur İbrahimov, "Deloitte & Touche" MMC-nin auditoru Rauf Atakişiyev, sərbəst auditor, Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin sədri Avtandil Əliyev iştirak etmişdirlər. Tədbir iştirakçıları tərəfindən "Dəyirmi masa"nın gündəliyində duran məsələlər müzakirə edilərək qərar qəbul edilmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilməkdədir.

Palatanın 2015-ci il üzrə iş planının 3.7-ci "Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması" və 1.16-cı "Könüllü və əlaqədar xidmətlərin genişləndirilməsi üzrə tədbirlər sisteminin hazırlanması" bəndinə uyğun

olaraq, hazırlanmış metodik göstərişin layihəsi 2015-ci il 29 iyun tarixində xidməti məktubla rəhbərliyə təqdim edilmişdir. Komitə sədrlərinə layihənin müzakirə edilməsi üçün elektron məktublar ünvanlanmışdır.

Palatanın 2015-ci il üzrə iş planının 3.10-cu "Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətinin araşdırılması" bəndinə uyğun olaraq, 2013-cü il üçün auditdən keçməyən təşkilatlara və 2014-cü il üçün fəaliyyətini sığortalamayan təşkilatlara qanunvericiliyin tələblərinə riayət olunması barədə xəbərdarlıq məktubları göndərilmiş və həmin məktublara əsasən, aparılmış təhlilin nəticələri Palatanın rəhbərliyinə təqdim edilmişdir. Təqdim edilmiş material Palata Şurasının 2015-ci il 26 may tarixli iclasında müzakirə edilərək özünün 263/3 saylı qərarı ilə təsdiq edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 3.11-ci "Azərbaycanda auditor xidməti bazarının təhlili" bəndinin icrasını təmin etmək məqsədilə təsdiq edilmiş Plan-proqramda nəzərdə tutulmuş 1-ci "Auditor xidməti bazarının təhlili ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi", 2-ci "Müxtəlif mənbələrdən auditor xidmətləri təklif edən şirkətlər barədə məlumatın əldə olunması", 3-cü "Həmin şirkətlərə nəzarət sorğuların göndərilməsi", 4-cü "Auditor xidməti ilə qanunsuz məşğul olan şirkətlərin müəyyən edilməsi", 5-ci "Belə şirkətlər barədə müvafiq tədbirlərin görülməsi" bəndlərinə dair görülmüş işlər barədə arayış Auditin təşkili və akkreditasiya şöbəsi tərəfindən hazırlanaraq 2015-ci il 11 iyun tarixində rəhbərliyə təqdim edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 4.2-ci "Auditor adı almaq üçün imtahanların təşkili" bəndinə uyğun olaraq, idarə tərəfindən Palatanın internet səhifəsində elan yerləşdirilmiş, auditor adı almaq üçün müraciət etmiş şəxslərin sənədləri toplanmış və idarə tərəfindən baza şəklində yığılmışdır. 2015-ci il 4-11 iyul tarixlərində keçiriləcək imtahanda iştirak edəcək şəxslərin siyahısını və onların ötən 5 il ərzində Auditorlar Palatası tərəfindən təşkil edilmiş ixtisasartırma kurslarında iştirakları barədə məlumatı Palata Şurasında müzakirə edilməsi üçün 2015-ci il 12 may tarixində rəhbərliyə təqdim edilmişdir. Həmin məlumat Palata Şurasının 2015-ci il 26 may tarixində müzakirə edilmiş və özünün 263/6 saylı qərarı ilə 1 nəfər imtahanlardan azad edilmiş, 2 nəfər imtahan

haqqından azad edilmiş və 1 nəfər isə ümumi əsaslarla imtahanlarda iştirakı barədə qərar qəbul edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 4.4-cü "Auditor təşkilatlarının əməkdaşları (assistentlər, mütəxəssislər) üçün ixtisasartırma kurslarının keçirilməsi" bəndinə uyğun olaraq, Kadr hazırlığı şöbəsi və Auditorların İxtisasartırma Komitəsi tərəfindən 2015-ci il üzrə assistent və mütəxəssislərin ixtisasartırma kursunun tədris proqramı, qrafiki və əmr layihəsi hazırlanaraq baxılması üçün 2015-ci il 03 fevral tarixində rəhbərliyə təqdim edilmişdir. Həmin proqram rəhbərlik yanında müzakirə edildikdən sonra irad və təkliflər nəzərə alınaraq, Palata sədrinin 2015-ci il 16 mart tarixli 11 saylı əmri ilə təsdiq edilmişdir. 2015-ci il 31 mart tarixində auditor təşkilatlarına müraciət məktubları göndərilmişdir. 2015-ci il 01 may tarixindən etibarən 35 auditor təşkilatından müraciət etmiş 59 nəfər mütəxəssisə kurslar tədris edilməyə başlanılmışdır. Kurslar 2015-ci il 26 may tarixində başa çatmışdır. Sonda kurs iştirakçılarına dinləyici sertifikatları təqdim edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 4.5-ci "Daxili audit kurslarının keçirilməsi" bəndinə uyğun olaraq, kurslarla bağlı elan 2015-ci il 08 yanvar tarixində Palatanın internet səhifəsində yerləşdirilmişdir. Kadr hazırlığı şöbəsi tərəfindən kursun tədris proqramının layihəsi hazırlanaraq baxılması üçün 2015-ci il 2 fevral tarixində rəhbərliyə təqdim edilmişdir. Proqram Palata sədrinin 2015-ci il 11 mart tarixli 10 saylı Əmri ilə təsdiq edilmişdir. 2015-ci il 13 fevral tarixində 87 müxtəlif müəssisələrə müraciət məktubu göndərilmişdir. Müraciət etmiş 14 nəfər şəxsə 2015-ci il 01 aprel tarixindən "Daxili auditin əsasları" mövzusunda kurslar tədris edilməyə başlanmışdır. 2015-ci il 01 may tarixində kurslar başa çatdırılmışdır. Kurslarda iştirak edən şəxslərə 2015-ci il 10 iyun tarixində dinləyici sertifikatları təqdim edilmişdir. Kurslar barədə məlumat Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 5.2-ci "Beynəlxalq audit və mühasibat qurumları tərəfindən təşkil olunacaq konfranslarda, forumlarda, simpoziumlarda və digər tədbirlərdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi" bəndinə uyğun olaraq, Beynəlxalq əlaqələr şöbəsi tərəfindən Sertifikatlı Mühasiblər Assosiasiyası (ACCA) tərəfindən

keçirilmiş "İdarəçilikdə dəyər yaratmaq: Şuralarda ümumi etika və mədəniyyət yaratmaq" adlı Konfransda Auditorlar Palatasının Beynəlxalq Əlaqələr üzrə komitəsinin sədri Lamiyə Bayramovanın həmin tədbirdə iştirakının təmin edilməsi, Atom Enerjisi üzrə Rusiya Korporasiyası (ROSATOM) tərəfindən 7-ci Beynəlxalq "ATOMEXPO 2015" Forumu çərçivəsində "Aşkarlıq şəraitində daxili nəzarət" mövzusunda keçirilmiş dəyirmi masada Palatanın sədri cənab Vahid Novruzovun və Palata Aparatının rəhbəri Qəşəm Bayramovun həmin tədbirdə iştirakının təmin edilməsi, Rusiyanın Auditorlar Kollegiyasının Prezidenti Ruf Aleksandr Leopoldoviçin 60 illik yubileyi münasibətilə keçirilmiş tədbirdə Palatanın sədri cənab Vahid Novruzovun və Palata Aparatının rəhbəri Qəşəm Bayramovun həmin tədbirdə iştirakının təmin edilməsi, Portuqaliyanın Lissabon şəhərində keçirilmiş EFAA-nın İllik Ümumi İclasında və Baş Assambleyasında Palatanın sədri cənab Vahid Novruzovun, Palata Aparatının rəhbəri Qəşəm Bayramovun, Palatanın Beynəlxalq Əlaqələr üzrə komitəsinin sədri Lamiyə Bayramovanın və Palatanın Şura üzvü Altay Cəfərovun həmin tədbirdə iştirakının təmin edilməsi həyata keçirilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 5.3-cü "Müvafiq əməkdaşlıq sazişlərinə əsasən, tərəfdaşlarla birgə tədbirlərin həyata keçirilməsi" bəndinə uyğun olaraq, Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən Xarici qurumlara, Prezident Aparatına, universitetlərə və bir sıra digər yerli təşkilatlara Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) 2015-ci ilin 7-8 may tarixlərində Baş Assambleyası və bu tədbir çərçivəsində "Kiçik və orta müəssisələrdə Beynəlxalq Maliyyə Hesabatı, Etika və Audit Standartlarının tətbiqi: problemlər və perspektivlər" mövzusunda beynəlxalq elmi-praktik konfransın təxirə salınması ilə bağlı məktubların hazırlanıb göndərilməsi, telefon danışıqlarının aparılması həyata keçirilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 5.4-cü "IFAC, EFAA və digər beynəlxalq qurumların keçirdiyi sorğularda iştirak edilməsi" bəndinə müvafiq olaraq 2015-ci il 09 aprel tarixində IFAC tərəfindən göndərilmiş sorğu, aprel və may aylarında EFAA tərəfindən göndərilmiş sorğular Beynəlxalq Əlaqələr Şöbəsi və digər məsul şəxslər tərəfindən cavablandırılmışdır.

Palatanın 2015-ci illər üzrə iş planının 6.2-ci “Auditin aktual problemləri üzrə konfransların, simpoziumların, “dəyirmi masa”ların və seminarların təşkili” bəndinə uyğun olaraq, təsdiq edilmiş plan-proqrama əsasən, 2015-ci il 5 iyun tarixində “Kiçik və orta auditor təşkilatlarının fəaliyyətinin aktual problemləri” mövzusunda konfransın keçirilməsi yarımbəndinin icrası ilə əlaqədar, nəzərdə tutulmuş tədbirin 2015-ci il 10 iyun tarixində “Dəyirmi masa” formatında keçirilməsi məqsədəmüvafiq hesab edilmişdir. Qeyd edilənləri nəzərə alaraq, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən keçiriləcək tədbirin proqramı və tədbirdə iştirak edəcək auditor təşkilatlarının siyahısı hazırlanmış və baxılması üçün rəhbərliyə təqdim edilmişdir. Palata sədrinin göstərişinə əsasən, həmin tədbirin 2015-ci il 8-10 oktyabr tarixlərində Auditorların və Mühasiblərin V Avropa forumunun bölmə iclasında geniş formada müzakirəsinin keçirilməsi məqsədəmüvafiq hesab edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 7.5-ci “Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatların yeniləşdirilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi” bəndinə uyğun olaraq, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlar haqqında məlumatlar mütəmadi olaraq yenilənmiş və Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 8.2-ci “Beynəlxalq Audit Standartlarının tətbiqinə dair silsilə seminarların keçirilməsi” bəndinə uyğun olaraq, 2015-ci il 09 yanvar tarixində təsdiq edilmiş “Beynəlxalq Auditi Standartlarının tətbiqinə dair silsilə seminarların keçirilməsi” plan-proqramına əsasən, idarə tərəfindən 2015-ci il 17 aprel tarixində “Qiymətləndirilmiş risklərə qarşı auditorların cavab tədbirləri”, “Xidmət təşkilatının xidmətindən istifadə edən iqtisadi subyektin auditi üzrə mülahizələr” mövzusunda təşkil edilmiş seminarda məruzəçi qismində sərbəst auditor Altay Cəfərov, 2015-ci il 30 aprel tarixində “Audit sübutu - seçilmiş maddələr üzrə mülahizələr”, “Kənar mənbədən təsdiqləmələr” mövzusunda təşkil edilmiş seminarda məruzəçi qismində “MAK Azərbaycan LTD” MMC-nin direktor-auditoru Zamin Hüseynov, 2015-ci il 15 may tarixində “İlk audit – ilkin qalıqlar”, “Analitik prosedurlar” mövzusunda təşkil edilmiş seminarda məruzəçi qismində “HLB Azərbaycan” MMC-nin direktor-auditoru İslam

Bayramov, 2015-ci il 29 may tarixində “Audit seçməsi”, “Mühasibat uçotu üzrə qiymətləndirmələrin, o cümlədən ədalətli dəyər qiymətləndirmələrinin və əlaqəli açıqlamaların auditi” mövzusunda təşkil edilmiş seminarda məruzəçi qismində “ANR Audit” MMC-nin direktoru Namiq Abbaslı, 2015-ci il 19 iyul tarixində “Əlaqəli tərəflər”, “Sonrakı hadisələr”, “Fəaliyyətin fasiləsizliyi”, “Yazılı təqdimatlar” mövzularında təşkil edilmiş seminarda məruzəçi qismində Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov çıxış etmişdirlər. Seminarlar haqqında məlumatlar Palatanın internet səhifəsində mütəmadi olaraq yerləşdirilmişdir. Hal-hazırda bu istiqamətdə işlər idarə tərəfindən davam etdirilməkdədir.

Palatanın 2015-ci il üzrə iş planının 8.5-ci “Auditorlar və audit mütəxəssisləri üçün xarici dil (ingilis dili) kurslarının keçirilməsi” bəndinin icrasını təmin etmək məqsədilə, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi və Maliyyə və Təsərrüfat idarəsi tərəfindən kursların təşkili ilə bağlı “ABC Təhsil Mərkəzi” ilə danışıqlar aparılmış və razılıq əldə edilmişdir. Bununla bağlı auditor təşkilatlarına müraciət məktubu göndərilmişdir. Bu müraciət əsasında 7 auditor təşkilatından və 8 nəfər Palata əməkdaşlarından ibarət qrup təşkil olunmuşdur. Qeydiyyatdan keçmiş 15 nəfər mütəxəssis üçün 2015-ci il 13 may tarixində səviyyə imtahanı təşkil edilmişdir. İmtahanın nəticələrinə əsasən, iki qrup yaradılmış və onlara 2015-ci il 18 may tarixindən etibarən kurslar tədris edilməyə başlanılmışdır. Kursun 3 ay müddətinə davam etdirilməsi nəzərdə tutulmuşdur. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

Palatanın 2015-ci il üzrə iş planının 8.9-cu “Auditorlar Palatası üzvlərinə məsləhət xidmətləri və hüquqi yardım göstərilməsi” bəndinə uyğun olaraq, idarə tərəfindən mütəmadi olaraq, müraciət etmiş üzvlərə məsləhət xidmətləri və hüquqi yardım göstərilmişdir.

Maliyyə və təsərrüfat idarəsi tərəfindən Auditorlar Palatasının 2015-ci il üçün aylıq hesabatları Nərimanov rayon Statistika İdarəsinə hazırlanıb təqdim edilmişdir.

Maliyyə və təsərrüfat İdarəsi tərəfindən 2015-ci ilin I rübü üzrə Sadələşdirilmiş vergi bəyannaməsi, Muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergi bəyannaməsi hesabatları 2015-ci ilin aprel ayında (vaxtlı-vaxtında) Vergilər Nazirliyi yanında Bakı

Vergilər Departamentinin Bəyannamələr və vergi borclarının alınması idarəsinə göndərilmişdir.

Auditorlar Palatasının 2015-ci ilin I rübü üzrə (B1formalı) hesabatı 2015-ci ilin aprel ayında hazırlanıb Dövlət Sosial Müdafiə Fonduna təqdim edilmişdir.

Maliyyə və təsərrüfat İdarəsi tərəfindən 2015-ci il üzrə "Torpaq vergisi bəyannaməsi" illik hesabat 2015-ci ilin aprel ayında (vaxtlı-vaxtında) Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Bəyannamələr və vergi borclarının alınması idarəsinə göndərilmişdir.

Auditorlar Palatasına üzv olan Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən Palataya ödənilməli üzvlük haqqının vəziyyəti barədə mütəmadi olaraq məlumat hazırlanıb Palata rəhbərliyinə təqdim olunur.

Maliyyə və təsərrüfat idarəsi tərəfindən iş fəaliyyətinin yekununa dair 2015-ci ilin I rübü üzrə hesabat hazırlanıb tələb olunan vaxt ərzində Palata rəhbərliyinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-cı il üzrə iş planının 23-cü bəndində (Beynəlxalq Audit Standartlarının 2013-cü il üzrə versiyasının tərcüməsi) göstərilmiş tapşırıqlar icra olunmuşdur.

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-cı il üzrə iş planının 24-cü bəndində (IFAC-ın Peşə Etika Məcəlləsinin tərcüməsi) göstərilmiş tapşırıqlar icra olunmuşdur.

Auditorlar Palatasının 2015-ci il üzrə iş planının 1.7-ci "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatların təhlili və tövsiyələrin hazırlanması" bəndinə uyğun olaraq, şöbə tərəfindən şöbə tərəfindən sərbəst auditorların və auditor təşkilatlarının 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatlarına dair təhlil aparılmış, müvafiq tövsiyələr hazırlanaraq Palata Şurasının növbəti iclasında müzakirə olunması üçün 2015-ci il 13 may tarixində xidməti məktubla Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir. Hazırlanmış materiala Palata

Şurasının 2015-ci il 26 may tarixli iclasında baxılaraq özünün 263/5 saylı qərarı ilə təsdiq edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.10-cu "Sərbəst auditorlar tərəfindən təqdim edilmiş 2015-ci il üzrə gündəliklərin təhlili və tövsiyələrin hazırlanması" bəndinə uyğun olaraq, sərbəst auditorların 2015-ci ilin I rübü üzrə gündəlikləri qəbul olunmuş, müvafiq icmal hazırlanaraq 2015-ci il 30 aprel tarixində xidməti məktubla Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.12-ci "Audit sistemində hesabatlılığın təkmilləşdirilməsi" bəndinə uyğun olaraq, Palata Sədrinin elmi-metodik məsələlər üzrə müşaviri (N.Talıbov) və Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən audit sistemində hesabatlılığın təkmilləşdirilməsi üzrə təkliflər hazırlanmış və baxılmaq üçün 2015-ci il 29 iyun tarixində xidməti məktubla Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.19-cu " 2014-cü il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinə uyğun olaraq, Palata Sədrinin elmi-metodik məsələlər üzrə müşaviri (N.Talıbov) və Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən 2014-cü il üçün auditorların reytinq səviyyəsinin müəyyən edilməsi istiqamətində material hazırlanmış və Palata Şurasının növbəti iclasında müzakirə edilməsi üçün Palata rəhbərliyinə təqdim edilmişdir. Hazırlanmış materiala Palata Şurasının 2015-ci il 26 may tarixli iclasında baxılaraq özünün 263/2 saylı qərarı ilə təsdiq edilmişdir.

Palatanın 2015-ci il üzrə iş planının 1.20-ci "Sahələr və regionlar üzrə məcburi auditdən keçmənin vəziyyətinə dair analitik informasiya sisteminin yaradılması" bəndinə uyğun olaraq, təsdiq olunmuş plan-proqrama əsasən, Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən auditor təşkilatları və sərbəst auditorlara cədvəl formaları elektron qaydada göndərilmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

Palatanın 2015-ci il üzrə iş planının 3.9-cu "Təsərrüfat subyektlərində 2014-cü ildə aparılmış auditlər barədə vahid məlumat reyestrinin hazırlanması" bəndinə uyğun olaraq, Palata Sədrinin elmi-metodik məsələlər üzrə müşaviri (N.Talıbov) və Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli) tərəfindən 2014-cü il ərzində təsərrüfat subyektlərində aparılan auditlərin vahid məlumat reyestri barədə hesabat hazırlanmış və baxılmaq üçün 2015-ci il

27 aprel tarixində xidməti məktubla Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir. Palata Şurasının 2015-ci il 26 may tarixli iclasında Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla hesabatın yenidən işlənilməsi barədə qərar qəbul edilmişdir. Hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

## II. Plandankənar işlərin hesabat dövründə icrası

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəalliyyətinin təşkili qaydaları"nın təsdiq edilməsi haqqında 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarını rəhbər tutaraq, Auditorlar Palatasının sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasında Çağrı Mərkəzinin yaradılması barədə" 2015-ci il 06 aprel tarixli 1/15 saylı sərəncamının icrasını təmin etmək məqsədilə işçi qrupu tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasında çağrı mərkəzinin fəaliyyətinin təşkili haqqında" Qaydalar və Auditorlar Palatasının Çağrı Mərkəzi haqqında ümumi məlumat baxılmaq üçün 23.04.2015-ci il tarixdə Palatanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

I Olimpiya Komitəsinin məsul əməkdaşı Yevgeniya Stepanovnanın Auditorlar Palatasına göndərdiyi 2015-ci il 4 may tarixli məktubuna görə təşəkkür edilmiş və bu məktubun göndərildiyi ünvanın şəxsən Palataya aid olduğunu və əməliyyatlara dair məxfi məlumatların bu ünvana göndərilə biləcəyi 05.05.2015-ci il tarixli cavab məktubu ilə təsdiq edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 2015-ci il 07 may tarixli dərkənar-göstərişinə əsasən, Aparatın rəhbəri Q.Bayramov, Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimov Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Təhsil Standartlarına (8-ci standartdan başqa) edilmiş əsas əlavə və dəyişikliklərin prezentasiya materialları ilə tanış olmuşlar. Həmin standartların tələbləri Beynəlxalq Mühasiblər Federasiyasının üzvləri üçün məcburi və 2015-ci ilin 1 iyul tarixindən qüvvədə olduğunu, eləcə də onların əhəmiyyətini nəzərə alaraq bu materialların xidməti istifadə üçün Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini, Palatanın Şurası yanında Auditorların İxtisasartırma Komitəsinə, Beynəlxalq Standartlar üzrə Komitəyə, Beynəlxalq Əlaqələr üzrə Komitəyə, Kadr

hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə göndərilməsi 12.05.2015-ci il tarixli xidməti məktubla təklif edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 13.05.2015-ci il tarixli “müvafiq qaydada cavablandırın” dərkənar-göstərişinə əsasən, 262 qeydiyyat nömrəli EFAA-nın prezidenti Bodo Richardt tərəfindən daxil olmuş “EFAA 2015 İllik Baş Toplantısına xüsusi qonaq qismində dəvət” adlı məktub Sədrin müşaviri F.Qarayev tərəfindən tərcümə edilmiş, tədbirin gündəliyi sədrə təqdim edilmiş və tədbirdə iştirak üçün qeydiyyat forması doldurularaq EFAA-nın e-ünvanına göndərilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 2015-ci il 12 may tarixli dərkənar-göstərişinə əsasən, Aparatın rəhbəri Q.Bayramov və Maliyyə və təsərrüfat idarəsinin rəisi V.Rəhimov Azərbaycan Respublikası Baş Nazirinin müavini Ə.Həsənovun şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinə yardım göstərilməsinə dair 2015-ci il 6 may tarixli 27/4-41 saylı məktubu ilə tanış olmuşlar və Auditorlar Palatasına təhkim olunmuş Lənkəran şəhərində məskunlaşmış məcburi köçkün ailələrinə 15 iyun Milli Qurtuluş günü ərəfəsində yardım göstərilməsini 14.05.2015-ci il tarixli xidməti məktubla təklif etmişlər.

Müstəqil Dövlətlər Birliyinin İcra Komitəsinin Mühasibat uçotu üzrə Koordinasiya Şurasının 2015-ci il 20 mart tarixli 07-04-16/15233 nömrəli məktubunda göstərilən məlumatlar 14.05.2015-ci il tarixdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 03.06.2015-ci il tarixli dərkənar-göstərişinə və 291 saylı xidməti məktuba əsasən, Rumıniya Maliyyə Auditorları Palatası tərəfindən Palatanın elektron ünvanına daxil olmuş “23 oktyabr 2015-ci il keçiriləcək 4-cü Rumıniya Auditor Peşəsi Qurultayına dəvət” məktubu Sədrin müşaviri F.Qarayev tərəfindən tərcümə edilmiş və sədrlə müzakirə edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 03.06.2015-ci il tarixli dərkənar-göstərişinə və 293 saylı xidməti məktuba əsasən, EFAA-nın prezidenti Bodo Richardt tərəfindən Palatanın elektron ünvanına daxil olmuş “Növbədənkənar baş toplantı-namizədlərin çağırılması” adlı məktub Sədrin müşaviri F.Qarayev tərəfindən tərcümə edilmiş, EFAA-nın Direktorlar Şurasına üzvlüyə namizəd üzrə Palatanı təmsil edəcək

şəxsin tərcümeyi-halı və onun Palatanın həqiqi üzvü olması barədə imzalı sənəd EFAA-nın katibliyinə e-poçt vasitəsilə göndərilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 03.06.2015-ci il tarixli dərkənar-göstərişinə və 296 saylı xidməti məktuba əsasən, IFAC-ın Keyfiyyət və Üzvlük məsələləri üzrə texniki meneceri Daria Kukhardan Palatanın e-mailinə daxil olmuş "Nəzarət hesabatı" ilə bağlı sorğu Sədrin müşaviri F.Qarayev tərəfindən tərcümə edilmiş, rəhbərlik səviyyəsində müzakirə edilmiş və müvafiq qaydada cavablandırılmışdır.

2015-ci ilin II rübü ərzində Palatanın e-mail ünvanı mütəmadi olaraq nəzarətdə saxlanılmış, IFAC, EFAA, IFIAR, IIA və s. bu kimi beynəlxalq nüfuzlu təşkilatlardan daxil olmuş məktublar nəzərdən keçirilmiş, zəruri hallarda tərcümə edilmiş və müvafiq şəkildə cavablandırılmışdır.

Aparatın rəhbəri Q.Bayramov Auditorlar Palatasının sədri cənab V.Novruzovun 2015-ci il 10 iyun tarixli 308 qeydiyyat nömrəli dərkənar-göstərişinə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin direktoru Adışirin Qasımovun Auditorlar Palatasına ünvanladığı 2015-ci il 5 iyun tarixli 04/01-3/055 saylı məktubu və ona əlavə edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın layihəsi ilə tanış olmuşdur. Həmin Milli Fəaliyyət Planının layihəsi çox geniş və əhatəli tərtib edildiyinə, eləcə də Auditorlar Palatasına dair əsas müddəalar əks etdirildiyinə görə heç bir irad və təklifi olmadığı barədə 10.06.2015-ci il tarixdə xidməti məktubla Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi cənab M.Abbasova məlumat verilmişdir.

EFAA-nın Direktorlar Şurasına namizədliyi verilən "L.B. Audit Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru-auditor Bayramova Lamiyə Qəşəm qızının 2008-ci il 26 dekabr tarixindən Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü olmasının və Auditorlar Palatasının 2014-cü il 10 sentyabr tarixli 254/1 saylı qərarı ilə Auditorlar Palatasının Şurası yanında Beynəlxalq əlaqələr üzrə Komitənin sədri vəzifəsinə təyin edilməsinin təsdiq edilməsi barədə 17.06.2015-ci il tarixdə məktub göndərilmişdir.

Azərbaycan Respublikası Prezident Administrasiyası rəhbərinin müavini cənab Ə.Əsədova ünvanlanan 2015-ci il 9 iyun tarixli 01-1/066 nömrəli müraciətə və Avropa

Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti cənab Bodo Riçhardtın dəvət məktubuna əsasən, Auditorlar Palatasının sədri cənab V.Novruzov 2015-ci il 25-26 iyun tarixlərində Portuqaliyanın Lissabon şəhərində keçirilən EFAA-nın İllik Ümumi Yığıncağında iştirak etməsi barədə hesabat hazırlanmış və 29.06.2015-ci il tarixdə Palanın sədri cənab V.Novruzova təqdim edilmişdir.

Sədrin Elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov 2015-ci ilin 14-17 aprel tarixlərində beynəlxalq auditorlar qrupunun tərkibində Türk PA (Türkdilli Dövlətlərin Parlament Assambleyası) təşkilatının fəaliyyətinin auditində və 2015-ci ilin 26-28 aprel tarixlərində Buxarest şəhərində Dünya Bankının «Avropa İttifaqının Şərq tərəfdaşlığı ölkələrində auditin və hesabatlılığın möhkəmləndirilməsi» (STAREP) proqramı çərçivəsində Buxarest şəhərində «Avropa İttifaqının qanunvericiliyinin tələblərinin tətbiqi vasitəsilə auditin keyfiyyətinin yüksəldilməsi» mövzusunda keçirilmiş beynəlxalq tədbirdə iştirak edilmiş və 2015-ci ilin 12-13 may tarixlərində Əmək və sosial münasibətlər Akademiyasında auditə dair mühazirə etmişdir.

Aparatın koordinatoru A.Seyidəliyeva tərəfindən "Audit-Azərbaycan" İnstitutunun üzvlüyünə 2015-ci ilin II rübü ərzində 5 yeni üzv cəlb edilmiş və hər biri üzvlüyə qəbul edilərək sertifikatla təmin edilmişdir.

Aparatın koordinatoru A.Seyidəliyeva tərəfindən "Audit-Azərbaycan" İnstitutunun üzvlük haqlarının yığılması ilə əlaqədar hesab-fakturalar hazırlanmış, üzvlərə göndərilməsi təmin edilmiş və üzvlük haqlarının yığılması istiqamətində işlər davam etdirilir.

Aparatın koordinatoru A.Seyidəliyeva tərəfindən "Audit-Azərbaycan" İnstitutuna daxil olan məktubların uçotu aparılmış və üzvlərə göndərilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini II dərəcəli dövlət ədliyyə müşaviri Rüstəm Usubovun 2015-ci il 13 mart tarixli /xid -2238 nömrəli məktubuna uyğun olaraq Zərdab rayon Çallı bələdiyyəsinin 2010-2014-cü illər üzrə fəaliyyətinin yoxlanılması Palata sədrinin müvafiq sərəncamı ilə Sərbəst auditor Şərif Miri oğlu Bəşirova tapşırılmış və yoxlama başa çatdıqdan sonra materialların aidiyyatı üzrə təqdim olunması təmin edilmişdir.

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi Hüseyn Səfərov tərəfindən 2015-ci il 20 fevral tarixli 2(001)-406/2014 saylı məktubu Palataya məktub daxil olmuşdur. Həmin məktubda göstərilənlərin icrası Palata sədrinin müvafiq sərəncamı ilə sərbəst auditor Yasin Şirinova tapşırılmış və sərəncamın icrası başa çatdıqdan sonra yoxlama materialları sərbəst auditor tərəfindən aidiyyatı üzrə göndərilmişdir.

Azərbaycan Respublikası Maliyyə Monitorinqi xidmətindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyatı qətnamələrinə əsasən, barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası"na əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən Ümumi Siyahı 2015-ci il 29 mart, 2015-ci il 06 aprel və 2015-ci ilin 09 aprel tarixlərində yenilənmiş məzmunlu məktubu Palataya daxil olmuşdur. Məlumatın əhəmiyyəti nəzərə alınaraq Palatanın elektron saytında yerləşdirilməsi üçün elan hazırlanmış və Palatanın saytında yerləşdirilməsi təmin edilmişdir.

Palata sədrinin 23.10.2014-cü il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin M-351/3 nömrəli məktubunda və Məhkəmənin 2(82)-1378/2014 saylı 23 iyun 2014-cü il tarixli qərardadında göstərilən "Lider" MTK-nın fəaliyyətinin yoxlanılması Palata sədrinin müvafiq sərəncamına uyğun olaraq sərbəst auditor Qulu Soltanova tapşırılmış və sərəncamın icrası başa çatdırıldıqdan sonra yoxlama materialları sərbəst auditor tərəfindən aidiyyatı üzrə təqdim edilmiş və bu barədə Auditorlar Palatasına məlumat verilmişdir.

Palata sədrinin 21.04.2015-ci il tarixli, 170A qeydiyyat nömrəli dərkənarla vermiş olduğu göstərişə əsasən, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2015-ci il 19 mart tarixli 2(82)-571/2015 saylı iş üzrə qəbul edilmiş Qətnaməsində göstərilən İddiaçı "Mayıllı" firması cavabdeh Azərbaycan Respublikası Auditorlar Palatasının Şurasının 252/4 saylı, 25.06.2014-cü il tarixli qərarının ləğv edilməsi ilə bağlı Bakı Apellyasiya

Məhkəməsinə apellyasiya şikayəti verilmişdir. 2015-ci il 16 iyul tarixində həmin məhkəmə iclasında iştirak ediləcəkdir.

Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini II dərəcəli dövlət ədliyyə müşaviri Rüstəm Usubovun 2015-ci il 04 mart tarixli 04/xid-1890 nömrəli məktubuna əsasən, Neftçala rayon prokurorluğunun 2015-ci il 20 fevral tarixli qərarında göstərilən Neftçala rayon Xolqarbucaq bələdiyyəsinin 2012-2014-cü illər üzrə fəaliyyətinin yoxlanılması Palata sədrinin müvafiq sərəncamı ilə Sərbəst auditor Şərif Miri oğlu Bəşirova tapşırılmışdır. Sərəncamın icrası başa çatdıqdan sonra yoxlama materialları aidiyyatı üzrə göndərilməsi təmin edilmişdir.

Palata sədrinin 30.03.2015-ci il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Şirvan Apellyasiya Məhkəməsinin 1(106)-39/2015 nömrəli 2015-ci il 26 fevral tarixli qərarında göstərilənlərin icrasını təmin etmək məqsədi ilə Palata sədrinin müvafiq sərəncamına əsasən, sərbəst auditor Şərif Miri oğlu Bəşirova tapşırılmışdır. Sərəncamın icrası başa çatdırılaraq tərtib olunmuş yoxlama materialları Şirvan Apellyasiya Məhkəməsinə təqdim edilməsi təmin edilmişdir.

Palata sədrinin 2014-cü il 17 fevral tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Bakı Apellyasiya Məhkəməsinin 2015-ci il 04 fevral tarixli 2(103)-53/2015 nömrəli məktubuna uyğun olaraq, 2015-ci il 29 yanvar tarixli Qərardadında göstərilən "Avtouniversal firması" MMC-nin 2004-2010-cu illər üzrə fəaliyyətinin yoxlanılması Palata sədrinin 1/6 saylı sərəncamı ilə sərbəst auditor Adıgözəl Musayevə tapşırılmışdır. Auditor yoxlaması başa çatdıqdan sonra nəticələrinə dair tərtib olunmuş materiallar sərbəst auditor tərəfindən Bakı Apellyasiya Məhkəməsinə təqdim edilməsi təmin edilmişdir.

Palata sədrinin 2015-ci il 30 aprel il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən daxil olmuş məktub tərcümə edilmiş və bununla bağlı rəhbərliyə xidməti məktub təqdim edilmişdir.

Palata sədrinin 13.02.2015-ci il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Azərbaycan Respublikası 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin icraatında olan iddiaçı "Azenko" ASC-nin cavabdeh "16 saylı İnşaat İstehsalat Təsərrüfat Tresti" MMC-

yə qarşı borcun tutulmasına dair iş üzrə auditor yoxlamasının aparılması barədə həmin məhkəmənin 29 dekabr 2014-cü il tarixli 2(82)-4443/2014 saylı qərardadının icrası Palata sədrinin 1/14 saylı sərəncamı ilə sərbəst auditor Qulu Mehbalı oğlu Soltanova tapşırılmışdır. Sərəncamın icrası başa çatdıqdan sonra aidiyyatı üzrə göndərilməsi təmin edilmişdir.

2015-ci il 29 aprel tarixində Cəlilabad rayon Qarazəncir kənd sakini Bayramov Camalxan İsa oğlu tərəfindən, "Access Bank qeyri-bank kredit təşkilatı vətəndaşlara müştəri xidməti göstərərkən bir sıra qanun pozuntularına yol verildiyi ilə bağlı məzmunlu ərizəsi daxil olmuşdur. Məktubun icrası ilə bağlı Palata sədrinin 29.04.2015-ci il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, vətəndaşa bildirilmişdir ki, "Banklar haqqında" Azərbaycan Qanununa uyğun olaraq ölkəmizdə bank fəaliyyətinə nəzarət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən həyata keçirilir. Ona görə də ərizə tərəfimizdən aidiyyatı üzrə Azərbaycan Respublikası Mərkəzi Bankına göndərilməsi təmin edilmişdir.

Palata sədrinin 09.02.2015-ci il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Azərbaycan Respublikası Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin 06 fevral 2015-ci il tarixli 142026102 nömrəli məktubuna uyğun olaraq, həmin idarədə istintaq olunan 142026102 nömrəli cinayət işi üzrə Bakı şəhəri Binəqədi rayon məhkəməsinin 5(001)34/2015 nömrəli işə dair 2015–ci il 04 fevral tarixli qərarında göstərilən "Vedi-E" MMC və "Ulduz-S" MMC-nin 01.01.2007-ci il tarixdən 01.01.2014-cü il tarixə kimi olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması Palata sədrinin müvafiq sərəncamı ilə "Azərbeynəlxalq Audit Xidməti" MMC-nin direktor – auditoru Misir Zaman oğlu Əhmədova tapşırılmışdır. Sərəncamın icrası başa çatdırılmış və aidiyyatı üzrə məktub göndərilməsi təmin edilmişdir.

Palata sədrinin 16.04.2015-ci il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Azərbaycan Respublikası 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2015-ci il 25 fevral tarixli 2(82)-111 saylı qərardadına uyğun olaraq, həmin məhkəmənin icraatında olan iş üzrə "Telko Plyus" MMC-nin cavabdeh Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi İntellektual İdarəetmə Mərkəzinə qarşı mülki iddiası ilə bağlı araşdırmanın aparılması Palata sədrinin müvafiq sərəncamı ilə "Azərbeynəlxalq Audit Xidməti" MMC-nin

direktor –auditoru Misir Zaman oğlu Əhmədova tapşırılmışdır. Hal-hazırda sərəncamın icrası davam etdirilir.

Azərbaycan Respublikası Maliyyə Monitorinqi xidmətindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyatı qətnamələrinə əsasən, barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası"na əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən Ümumi Siyahı 2015-ci il 04 may tarixində yenilənmiş məzmunlu məktubu Palataya daxil olmuşdur. Məlumatın əhəmiyyəti nəzərə alınaraq Palatanın elektron saytında yerləşdirilməsi üçün elan hazırlanmış və Palatanın saytında yerləşdirilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi tərəfindən Palataya daxil olmuş 2014-cü il 03 dekabr tarixli 2(82)-1712/2014 saylı qərardadına əsasən, iddiaçı Məmmədova Səbirə Əsgər qızının cavabdeh "Suraxanı Bazar"ASC-yə səhmlər üzrə dividentlərin, maddi və mənəvi zərərin ödənilməsi, pozulmuş hüquqların bərpa olunması" tələbinə dair mülki iş üzrə auditor yoxlamasının keçirilməsi Palata sədrinin müvafiq sərəncamı ilə sərbəst auditor Avtandil Adıgözəl oğlu Əliyevə tapşırılmışdır. Sərəncamın icrası başa çatmış və aidiyyatı üzrə məktub göndərilməsi təmin edilmişdir.

2015-ci il 08 may tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qanunvericilik baş idarəsinin rəisi cənab Adil Əliyevin imzası ilə Nazirlər Kabinetinin 08.04.2015-ci il tarixli 17/PA-387-18/14 nömrəli tapşırığının icrasının təmin edilməsinə dair məzmunlu məktubu daxil olmuşdur. Məktubda "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2015-ci il 24 fevral tarixli 1209-IVQD nömrəli Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1143 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktlarının qeyd edilən

Qanuna uyğunlaşdırılmasına dair təkliflərin təqdim olunması istənilmişdir. Bununla bağlı müvafiq qaydada cavab məktubu hazırlanmış, aidiyyatı üzrə Ədliyyə Nazirliyinə göndərilməsi təmin edilmişdir. Həmçinin Palata rəhbərliyinə xidməti məktubla məruzə edilmişdir.

Palata sədrinin 18.05.2015-ci il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Masallı rayonu Türkoba sakini Şərif Möhübbət oğlu Fətullayevin Palataya 2015-ci il 12 may tarixində göndərmiş olduğu ərizəsinə baxılmış və göstərilənlər Palatanın səlahiyyətlərinə aid edilmədiyi üçün Azərbaycan Dövlət Əmlak Məsələləri Komitəsinə aid olunduğu üçün həmin ərizə və ərizəyə əlavələr müvafiq qərar qəbul edilməsi üçün qeyd olunan Komitəyə göndərilmiş, həmçinin bununla bağlı ərizəçiyə məlumat verilmişdir.

Palata sədrinin 03.10.2014-cü il tarixli dərkənarla vermiş olduğu göstərişə əsasən, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə Baş idarəsinin 02.07.2014-cü il tarixli 142026197 nömrəli məktubuna uyğun olaraq, həmin idarədə istintaq olunan cinayət işi üzrə Bakı Binəqədi rayon məhkəməsinin 5(001)-381/2014 nömrəli işə dair 2014-cü il 25 sentyabr tarixli qərarında göstərilən Lənkəran Dövlət Humanitar Kollecinin 01.10.2010-cu il tarixdən 15.10.2014-cü il tarixədək olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması Palata sədrinin müvafiq sərəncamı ilə sərbəst auditor Adıgözəl Maqsud oğlu Musayevə tapşırılmışdır. Sərəncamın icrası başa çatdırılaraq, aidiyyatı üzrə məktub göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Maliyyə Monitorinqi xidmətindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyatı qətnamələrinə əsasən, barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası"na əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən Ümumi Siyahı 2015-ci il 20 may və 27 may tarixlərində yenilənmiş məzmunlu məktubları Palataya daxil olmuşdur.

Məlumatın əhəmiyyəti nəzərə alınaraq Palatanın elektron saytında yerləşdirilməsi üçün elan hazırlanmış və Palatanın saytında yerləşdirilməsi təmin edilmişdir.

2015-ci il 04 iyun tarixində "Şəffaflıq –Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyindən Palataya daxil olan məktuba əsasən, Palata sədrinin 04.06.2015-ci il tarixində "Xahiş edirəm tədbirdə iştirak edin" dərkənar göstərişinə uyğun olaraq, Keyfiyyətə Nəzarət və Hüquqi Təminat idarəsinin Hüquqi Təminat şöbəsinin müavini Fəzail Məmmədov qeyd olunan tədbirdə iştirak etmişdir.

Azərbaycan Respublikası Baş Prokurorunun birinci müavini II dərəcəli dövlət ədliyyə müşaviri Rüstəm Usubovun 2015-ci il 18 may tarixli 04/2115mat. nömrəli məktubuna əsasən, Göyçay rayon prokurorunun 2015-ci il 07 may tarixli qərarında göstərilən Göyçay rayonu Qaraməryəm bələdiyyəsinin 2012-2014-cü illər və 2015-ci ilin yanvar-aprel ayları üzrə fəaliyyətinin yoxlanılması Palata sədrinin müvafiq sərəncamı ilə "AUDİT GRUP" MMC-nin direktoru Natiq Məmmədova tapşırılmışdır. Sərəncamın icrası başa çatdırılaraq, aidiyyatı üzrə məktub göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası 2 saylı Bakı İnzibati – İqtisadi Məhkəməsinin 25 fevral 2015-ci il tarixli 2(82) -523/2015 saylı qərardadına əsasən, həmin məhkəmənin icraatında olan iş üzrə "Zərkənd LTD" MMC-nin nümayəndəsinin müraciətinə uyğun olaraq, müəssisənin müflis olması faktının müəyyən edilməsi məqsədi ilə auditor yoxlamasının aparılması Palata sədrinin müvafiq sərəncamı ilə Sərbəst auditor Qulu Mehbalı oğlu Soltanova tapşırılmışdır. Sərəncamın icrası başa çatdırılaraq, aidiyyatı üzrə məktub göndərilməsi təmin edilmişdir.

Palata sədrinin 2015-ci il 10 iyun tarixli 308 qeydiyyat nömrəli dərkənarla vermiş olduğu göstərişə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin direktoru Adışirin Qasımovun Palataya ünvanlandığı 2015-ci il 5 iyun tarixli 04/01-3/055 saylı məktubuna və ona əlavə edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2016-2018-ci illər üçün Milli fəaliyyət planının layihəsinə baxılmış, müvafiq qaydada icrası təmin edilmiş və aidiyyatı üzrə məktub göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Maliyyə Monitorinqi xidmətindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş “Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyatı qətnamələrinə əsasən, barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Ümumi Siyahısının təsdiq olunması Qaydası”na əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən Ümumi Siyahı 2015-ci il 18 iyun tarixində yenilənmiş məzmunlu məktubu Palataya daxil olmuşdur. Məlumatın əhəmiyyəti nəzərə alınaraq Palatanın elektron saytında yerləşdirilməsi üçün elan hazırlanmış və Palatanın saytında yerləşdirilməsi təmin edilmişdir.

Palata sədrinin 2015-ci il 1 aprel tarixli göstərişinə əsasən, Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən Portuqaliyanın Lissabon şəhərində keçirilmiş EFAA İllik Ümumi İclası və Baş Assambleyası ilə bağlı göndərdiyi məktub 2015-ci il 01 aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir. Bununla bağlı olaraq, 2015-ci il 15 aprel tarixində cavab məktubu hazırlanıb tərcümə olunaraq göndərilmişdir. Palata sədrinin 2015-ci il 14 aprel tarixli göstərişinə əsasən, Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən göndərilən eyni mövzulu məktubu 2015-ci il 01 aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir. Həmin tədbirdə Palata təmsilçilərinin iştirakının təmin edilməsi məqsədilə viza məsələlərinin həll olunması, otel bron edilməsi, Lissabon haqqında məlumatların toplanması, EFAA İcraçı direktoru Marie Lang ilə geniş yazışmaların aparılması Beynəlxalq Əlaqələr Şöbəsi tərəfindən həyata keçirilmişdir.

Palata sədrinin 2015-ci il 2 aprel tarixli göstərişinə əsasən, Sertifikatlı Mühasiblər Assosiasiyası (ACCA) tərəfindən Brüsseldə keçiriləcək konfransla bağlı Auditorlar Palatasına göndərilmiş məktub Palata sədrinin 2015-ci il 2 aprel göstərişinə əsasən, eyni mövzulu məktub 2015-ci il 3 aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir. Palata sədrinin 2015-ci il 3 aprel və 2015-ci il 6 aprel tarixli göstərişinə əsasən, konfransın şərtləri əldə olunaraq rəhbərliyə təqdim olunmuşdur. Tədbirdə iştirakla bağlı cavab məktublarının hazırlanıb göndərilməsi və Palata üzvlərinin həmin tədbirdə

iştirakının təmin edilməsi məqsədilə qeydiyyat anketinin doldurulub təsdiq etdirilməsi, viza məsələlərinin həll olunması və bununla bağlı telefon danışıqlarının aparılması həyata keçirilmişdir. Palata sədrinin 2015-ci il 19 may tarixli göstərişinə əsasən, ACCA-dan həmin tədbirlə bağlı göndərilmiş hesabat 2015-ci il 29 may tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Auditin təşkili və akkreditasiyası şöbəsi tərəfindən 2015-ci il 06 aprel tarixində Maliyyə Nazirliyi, Hesablama Palatası və İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığın inkişafı departamentinə I rüb üzrə müvafiq hesabatlar təqdim olunmuşdur.

Maliyyə Nazirinin müavini cənab A.Bayramov tərəfindən Palataya ünvanlanmış 2015-ci il 14 aprel tarixli 03/03-01-157-2224 saylı Azərbaycan Respublikasının 2016-2019-cu illər üzrə dövlət büdcəsi layihəsinin hazırlanması məqsədilə ünvanlanmış məktuba cavab olaraq, Auditorlar Palatasının Auditin təşkili və akkreditasiya şöbəsi tərəfindən "Auditor fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi üçün tutulan dövlət rüsumu" barədə proqnoz məlumat hazırlanmış və göndərilmişdir.

II rübü ərzində auditorlara və auditor təşkilatlarına auditor xidməti həyata keçirməyə icazə verən lisenziyalar rəsmiləşdirilmişdir.

Auditorların və auditor təşkilatlarının lisenziyaları barədə məlumatlarla müvafiq dövlət orqanlarına və Palatanın struktur bölmələrinə göndərilmişdir.

Palata tərəfindən 2015-ci ilin II rübü üzrə auditor fəaliyyəti üçün yeni lisenziya verilmiş və lisenziyasının vaxtı uzadılmış, lisenziyasının fəaliyyəti dayandırılmış hüquqi və fiziki şəxslər:

**"CROCUS AUDIT" MMC**-yə (VÖEN 1802589851) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən auditor fəaliyyətini həyata keçirməyə icazə verən 03.04.2015-ci il tarixli, AT/116 qeydiyyat saylı, 080845 №-li yeni lisenziya rəsmiləşdirilmiş (02.04.2015-ci il tarixli ərizəyə əsasən,) və müvafiq orqanlara məlumat verilmişdir.

**"CACS AUDIT" MMC**-yə (VÖEN 1401037041) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən auditor fəaliyyətini həyata keçirməyə icazə verən 06.04.2015-ci il tarixli, AT/087 qeydiyyat saylı, 080846 №-li yeni lisenziya

rəsmiləşdirilmiş (01.04.2015-ci il tarixli ərizəyə əsasən,) və müvafiq orqanlara məlumat verilmişdir.

**Sərbəst auditor Orucov Nurlan Ziyəddin oğlu** (VÖEN 1802589851) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 01.02.2013-ci il tarixli, SA/283 qeydiyyat saylı, 072759 №-li lisenziya ilə **"G and A Audit" MMC-də auditor** fəaliyyətini dayandıraraq, 08.04.2015-ci il tarixindən **"CROCUS AUDİT" MMC-nin** direktor-auditoru kimi fəaliyyət göstərir.

**"Best Audit" məhdud məsuliyyətli cəmiyyətinə** (VÖEN 2002113951) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 12.10.2011-ci il tarixli, AT/092 qeydiyyat saylı, 047518 №-li lisenziyasının fəaliyyəti üzvlük haqqı borcları tam ödənildikdən sonra 06.05.2015-ci il tarixindən etibarən bərpa edilmişdir. Bu barədə müvafiq orqanlara məlumat verilmişdir.

**"RM AUDİT" MMC**-yə (VÖEN 1401735361) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 15.05.2015-ci il tarixli, AT/086 qeydiyyat saylı, 080847 №-li yeni lisenziya rəsmiləşdirilmiş (14.05.2015-ci il tarixli ərizəyə əsasən,) və müvafiq orqanlara məlumat verilmişdir.

**Sərbəst auditor Miriyev Rasət Abasət oğlu** Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 14.02.2011-ci il tarixli, SA/150 qeydiyyat saylı, 047491 nömrəli lisenziya ilə **"RM AUDİT"MMC-nin** (VÖEN 1401735361) **direktor-auditoru** kimi fəaliyyətini davam etdirir. Bu barədə müvafiq orqanlara məlumat verilmişdir.

**"JPA International Azərbaycan" MMC-yə** (VÖEN 1400267141) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 04.03.2013-cü il tarixli, AT/035 qeydiyyat saylı, 072763 №-li lisenziyasının fəaliyyəti 26.05.2015-ci il tarixindən etibarən bərpa edilmişdir. Bu barədə müvafiq orqanlara məlumat verilmişdir.

**Sərbəst auditor Ağayev Ramil Ramiz oğlunun** (VÖEN 5400448272) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən auditor fəaliyyətini həyata keçirməyə icazə verən 28.09.2012-ci il tarixli, SA/324 qeydiyyat saylı, 072739 №-li lisenziyasının

fəaliyyəti 19.06.2015-ci il tarixdən müvəqqəti olaraq dayandırılmışdır. Bu barədə müvafiq orqanlara məlumat verilmişdir.

Palata sədrinin 2015-ci il 10 aprel tarixli göstərişinə əsasən, ACIIA Prezidenti Naren Aneja tərəfindən Şri-Lankada keçirilən Konfransa dəvətlə bağlı göndərilmiş məktub 2015-ci il 14 aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 13 aprel tarixli göstərişinə əsasən, IFIAR (Müstəqil Audit Tənzimləyicilərinin Forumu) tərəfindən Auditorlar Palatasına üzvlüklə bağlı daxil olmuş məktub və Üzvlük Müraciət Anketi 2015-ci il 20 aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim olunmuşdur. Həmin məktuba əlavə olunmuş Üzvlük Müraciət Anketi doldurulduqdan sonra tərcümə olunub yenidən rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 16 aprel tarixli 210 saylı, Azərbaycan Respublikası Bakı Biznes Universiteti tərəfindən göndərilmiş 2015-ci il 05 may tarixində keçirilməsi planlaşdırılan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş “İnvestisiya qoyuluşlarının siyasi əhəmiyyətli və iqtisadi səmərəliliyi” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans barədə əməkdaşların və üzvlərin nəzərinə çatdırılması üçün Palatanın internet səhifəsində elan yerləşdirilmişdir.

Palata sədrinin 2015-ci il 16 aprel tarixli 206 saylı göstərişinə əsasən, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsindən “Azərbeynəlxalq audit xidməti” MMC-nin direktoru Əhmədov Misir Zaman oğlunun Azərbaycan Respublikası MTN İstintaq Baş idarəsi tərəfindən ibtidai istintaqı aparılmış bir sıra ağır və xüsusilə ağır cinayət işləri üzrə mütəxəssis qismində iştirak etmiş, bu zaman müxtəlif hüquqi və fiziki şəxslərin maliyyə-təsərrüfat fəaliyyətlərinin audit yoxlamasını həyata keçirərək ibtidai istintaq orqanı tərəfindən qoyulmuş sualların qanunvericiliyin tələblərinə müvafiq şəkildə vaxtında, tam, obyektiv və hərtərəfli cavablandırmaqla mütəşəkkil dəstə üzvləri tərəfindən dövlət, bələdiyyə və xüsusi mülkiyyətə dəymiş külli miqdarda ziyanın, habelə vergilərin ödənilməsindən yayındırılmış pul vəsaitlərin müəyyən edilməsində istintaqa yaxından köməklik göstərilməsi və bunun nəticəsi olaraq, Palata tərəfindən mükafatlandırılması” barədə idarəyə daxil olmuş məktub 2015-ci il 21 aprel tarixində Palatanın sədrinə məruzə edilmiş və həmin məktub Palatanın internet səhifəsində yerləşdirilmişdir.

Palata sədrinin 2015-ci il 24 aprel tarixli göstərişinə əsasən, Rusiya Auditorlar Kollegiyasından prezident cənab Aleksandr Rufun 60 illik yubileyi ilə bağlı göndərilmiş məktub 2015-ci il 29 aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 24 aprel tarixli göstərişinə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı Yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən Auditorlar Palatasına göndərilmiş məktub 2015-ci il 27aprel tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin göstərişinə əsasən, 2015-ci il 24 aprel tarixində keçirilmiş İDEA – İctimai birliyinin xüsusi layihəsi "Azərbaycanın 9 möcüzəsi" silsiləsindən olan "Ağgöl Milli Parkı" filminin təqdimat mərasimində Azərbaycan Respublikası Auditorlar Palatasının 15 nəfər əməkdaşı iştirak etmişdir.

Palata sədrinin 2015-ci il 27 aprel tarixli göstərişinə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı Yanında Maliyyə Monitorinqi Xidməti tərəfindən göndərilən məktub Beynəlxalq Əlaqələr Şöbəsi tərəfindən tərcümə olunaraq rəhbərliyə təqdim olunmuşdur.

Palata sədrinin 2015-ci il 28 aprel tarixli göstərişinə əsasən, Rumıniya Auditorlar Palatası tərəfindən Rumıniyada keçiriləcək Konfransla bağlı göndərilmiş məktub 2015-ci il 1 may tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 29 aprel tarixli göstərişinə əsasən, Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən göndərilən məqaləyə rəyin hazırlanması ilə bağlı Auditorlar Palatasına göndərilmiş məktub 2015-ci il 1 may tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 5 may tarixli göstərişinə əsasən, 2015-ci il 12 may tarixində STAREP proqramı çərçivəsində keçirilən konfransla bağlı Auditorlar Palatasına göndərilmiş məktub tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 7 may tarixli göstərişinə əsasən, Beynəlxalq Mühasiblər Federasiyasından hesabatla bağlı göndərilmiş müvafiq sənədlər tərcümə olunmuşdur.

Palata sədrinin 2015-ci il 7 may tarixli 244 saylı Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən göndərilmiş 2015-ci il may ayının 12-də TOBB-un sədrliyi çərçivəsində Azərbaycan Respublikası

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) ilə birlikdə B20-nin növbəti məsləhətləşmə forumunun - Azərbaycan Regional Məsləhət Forumunun Bakı şəhərində keçirilməsi barədə olan məktubu Palata sədrinə məruzə edilmiş və tədbirdə Palata sədrinin özünün iştirak etməsi məqsədəmüvafiq hesab edilmişdir.

Palata sədrinin 2015-ci il 18 may tarixli göstərişinə əsasən, Auditorlar Palatasının rəhbərliyi, əməkdaşları və üzvləri üçün nəzərdə tutulmuş iş vəsiqələrinin nümunəsi Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən hazırlanmış və baxılmaq üçün 2015-ci il 10 iyun tarixində rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 20 may tarixli göstərişinə əsasən, Atom Enerjisi üzrə Rusiya Korporasiyası (ROSATOM) tərəfindən 7-ci Beynəlxalq "ATOMEXPO 2015" Forumu çərçivəsində "Aşkarlıq şəraitində daxili nəzarət" mövzusunda keçirilmiş dəyirmi masa ilə bağlı göndərilmiş məktubla bağlı olaraq palata üzvlərinin dəyirmi masada iştirakının təmin edilməsi məqsədilə Moskva ilə yazışmalar, sədrin məruzəsinin hazırlanması, biletlərin bron edilməsi həyata keçirilmişdir. Eyni zamanda, tədbir başa çatdıqdan sonra dəyirmi masadakı məruzə ilə bağlı qəzet müxbirinə verilən müsahibə də hazırlanmışdır.

Palata sədrinin 2015-ci il 3 iyun tarixli göstərişinə əsasən, , Avropa Mühasiblər və Auditorlar Federasiyası (EFAA) tərəfindən Auditorlar Palatasına daxil olmuş 40 vərəqdən ibarət olan hesabatlar və EFAA tədbiri ilə bağlı geniş məlumatlar 2015-ci il 9 iyun tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 5 iyun tarixli göstərişinə əsasən, Beynəlxalq Mühasiblər Federasiyasından (IFAC) Şura iclası ilə bağlı Auditorlar Palatasına göndərilmiş məktub tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 5 iyun tarixli göstərişinə əsasən, 2015-ci il 5 iyun tarixində Sertifikatlı Dövlət Mühasiblərinin Fransa İnstitutunun (CSOEC) prezidenti Philippe Arraou tərəfindən "30 sentyabr, 1 və 2 oktyabr tarixlərində keçiriləcək Sertifikatlı Dövlət Mühasiblərinin Fransa İnstitutunun (CSOEC) 7-ci Konqresi" haqqında Auditorlar

Palatasına göndərilmiş məktub və konqres barədə əldə olunan əlavə materiallar 2015-ci il 12 iyun tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 11 iyun tarixli göstərişinə əsasən, IASB (Beynəlxalq Mühasib Standartları Şurası) tərəfindən Auditorlar Palatasına daxil olmuş 28-29 Sentyabr tarixlərində Londonda keçiriləcək IASB-nin Dünya Standart Qurucuları ilə iclası haqqında göndərilmiş məktub 2015-ci il 19 iyun tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 19 iyun tarixli göstərişinə əsasən, Monteneqro Auditorlar və Mühasiblər İnstitutundan Auditorlar Palatasına dəvətlə bağlı göndərilmiş məktub 2015-ci il 19 iyun tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 11 iyun tarixli göstərişinə əsasən, Gürcüstan Maliyyə Menecerləri, Mühasibləri və Auditorları Federasiyası tərəfindən Auditorlar Palatasına göndərilmiş 21-22 sentyabrda keçiriləcək konfransla bağlı məktub 2015-ci il 19 iyun tarixində tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 23 iyun tarixli göstərişinə əsasən, Malayziya Mühasiblər İnstitutundan Auditorlar Palatasına Konfransa dəvətlə bağlı göndərilmiş məktub tərcümə olunaraq rəhbərliyə təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının plandan kənar işlərin hesabat dövründə icrası ilə əlaqədar beynəlxalq əlaqələr şöbəsi tərəfindən 2015-ci ilin II rübü ərzində 22 ədəd "The Chartered Accountant", "Economica" ,"İnternal Auditor" və "İnternational Accountant" jurnallarının müxtəlif nəşrlərinin mündəricatları, 262-6/2015 nömrəli Şura qərarı və 1-17/2015 nömrəli Sərəncam, Əlaqəli audit xidməti ilə bağlı Norveç, İspaniya və Braziliyadakı audit xidməti haqqında məqalələr tərcümə olunaraq Palatanın sədri Vahid Novruzova təqdim olunub və eyni zamanda müxtəlif şöbələrə göndərilən sənədlərin tərcüməsi də Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən həyata keçirilib.

Beynəlxalq Əlaqələr Şöbəsi tərəfindən IFIAR (Müstəqil Audit Tənzimləyicilərinin Forumu) tərəfindən Auditorlar Palatasına üzvlüklə bağlı daxil olmuş 5 məktub və Üzvlük Müraciətinin tərcümə olunaraq rəhbərliyə təqdim edilməsi, həmin məktublara hazırlanmış cavabların, doldurulmuş üzvlük müraciətinin tərcüməsi həyata keçirilmişdir.

Palata sədrinin 2015-ci il 29 iyun tarixli göstərişinə əsasən, Atom enerjisi üzrə dövlət korporasiyasının (“ROSATOM”) nəzarət-təftiş fəaliyyəti departamenti direktorunun Daxili nəzarət üzrə müşaviri Tatyana Çuqayevanın 2015-ci il 25 iyun tarixli məktubuna idarə tərəfindən baxılmış, həmin təşəkkür məktubunu və “ROSATOM”-un Departament direktoru İ.M.İqinin 2015-ci il 19 iyun tarixli minnətdarlıq məktubunu Palatanın internet səhifəsində yerləşdirilməsi məqsədəmüvafiq hesab edilmişdir. Materiallar xidməti məktubla 2015-ci il 30 iyun tarixində rəhbərliyə təqdim edilmişdir.

- 2015-ci il 03 aprel tarixində XDMX-Xüsusi rabitə və informasiya təhlükəsizliyi agentliyi tərəfindən 2015-ci il üzrə illik abunə haqqı ödənişi ilə əlaqədar daxil olmuş məktub müvafiq qaydada həll edilmiş və ödəniş təmin olunmuşdur.
- 2015-ci il 07 aprel tarixində sərbəst auditor Nurlan Orucov tərəfindən (təşkilata keçməsi ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 09 aprel tarixində IFAC (Darya Koukar) tərəfindən daxil olmuş məktuba baxılmış və rəhbərliyə məruzə edilmişdir.
- 2015-ci il 09 aprel tarixində Həmkarlar İttifaqı Komitəsinin sədri S.Gülməmmədov tərəfindən (təsərrüfat bölməsinin gözətçisi Musa Ümbətovun yubileyi ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 16 aprel tarixində Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Bəyannamələr və vergi borclarının alınması idarəsi tərəfindən (Kameral yoxlama ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 20 aprel tarixində IFAC tərəfindən keçiriləcək tədbir ilə əlaqədar daxil olmuş məktuba baxılmış və rəhbərliyə məruzə edilmişdir.
- 2015-ci il 29 aprel tarixində “RM Audit” MMC-nin direktoru R. Miriyev tərəfindən (lisenziyanın bərpası barədə) daxil olmuş məktuba baxılmışdır.
- 2015-ci il 29 aprel tarixində Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov tərəfindən (Rusiya Auditorlar Kollegiyasının prezidenti cənab Aleksandr Rufun yubileyi ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.

- 2015-ci il 05 may tarixində “Best Audit” MMC-nin rəhbərliyi tərəfindən (lisenziyanın bərpası ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 07 may tarixində Peşəkar Mühasiblər Federasiyası tərəfindən (2015-ci il 21 may tarixində Samarada keçiriləcək konfransla əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 07 may tarixində IFAC tərəfindən (Beynəlxalq Təhsil Standartları) göndərilən məktuba baxılmışdır.
- 2015-ci il 07 may tarixində “Respublika” qəzeti redaksiyası tərəfindən 2015-ci ilin II yarısı üçün abunə yazılışı ilə əlaqədar daxil olmuş müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 12 may tarixində Azərbaycan Respublikası Dövlət Sosial Müdafiəsi Fondunun İri Sığortaedənlərlə İş üzrə Departamenti tərəfindən daxil olmuş məktuba baxılmış və sosial sığorta qanunvericiliyinə əməl olunmasının düzgünlüyünü yoxlamaq məqsədilə müvafiq şəraitin yaradılması təmin olunmuşdur.
- 2015-ci il 13 may tarixində Auditorlar Palatasının Aparatı və Maliyyə Təsərrüfat İdarəsi tərəfindən daxil olmuş məktub (Beynəlxalq Təhsil Standartları ilə əlaqədar) nəzərə alınmışdır.
- 2015-ci il 15 may tarixində Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramov tərəfindən daxil olmuş məktuba baxılmış və Lənkəran şəhərində məskunlaşmış məcburi köçkün ailələrinə 15 iyun “Milli Qurtuluş Günü” münasibətilə yardım göstərilmişdir .
- 2015-ci il 22 may tarixində Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən (ABC Təhsil Mərkəzi tərəfindən ingilis dili kursunun keçirilməsi ilə əlaqədar ödənişin təmin edilməsi barədə) daxil olmuş məktub icradadır.
- 2015-ci il 29 may tarixində “Xalq qəzeti” redaksiyası tərəfindən (2015-ci ilin II yarısı üçün abunə yazılışı ilə əlaqədar) daxil olmuş məktub müvafiq qaydada həll edildi.

- 2015-ci il 03 iyun tarixində Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən (Abdullayev Yaqub və İlham Hacıəzizovun yubileyinin keçirilməsi) daxil olmuş məktub müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 10 iyun tarixində Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov tərəfindən (Palata tərəfindən verilmiş borcun qaytarılması ilə bağlı) daxil olmuş məktuba baxılmış və rəhbərliklə danışılmışdır.
- 2015-ci il 10 iyun tarixində Maliyyə Monitorinqi Xidmətinin direktoru A.Qasımov tərəfindən (Milli Fəaliyyət Planının layihəsi ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və müvafiq qaydada həll edilmişdir.
- 2015-ci il 17 iyun tarixində Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən (Fransa İnstitutunun 70-ci Kongresi ilə əlaqədar) daxil olmuş məktuba baxılmış və təklif verilmişdir.
- 2015-ci il 17 iyun tarixində sərbəst auditor Ağayev Ramil Ramiz oğlu tərəfindən (audit fəaliyyətinin dayandırılması) daxil olmuş məktuba baxılmışdır.

Auditorlar Palatası sədrinin 2015-ci il 8 iyun tarixli müvafiq göstərişinə əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdiri E.Cəfərov tərəfindən daxil olmuş məktuba baxılmış və auditor xidmətinə dair 2014-cü il üzrə bəzi göstəricilər barədə məlumat hazırlanaraq Aparatın rəhbəri Q.Bayramovun imzası ilə aidiyyatı ünvana göndərilmişdir.

## III. Palata Şurasının qərarlarının hesabat dövründə icrası

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 08.04.2015 və 09.04.2015-ci il tarixli dərkənar-göstərişlərinə və 125, 127 saylı xidməti məktublara əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən Aparatın rəhbəri Q.Bayramovdan daxil olmuş "Palata Aparatının və Auditorlar Palatasının 2015-ci ilin I rübü üzrə iş fəaliyyətinin yekununa dair hesabat"lar sədrin yanında 10.04.2015-ci ildə keçiriləcək iclasda müzakirə edilməsi üçün hazırlanmış və iclasın gündəliyinə daxil edilmişdir.

Keyfiyyətə nəzarət komitəsinin sədri İ.Bayramovdan 10.03.2015-ci il tarixində Palatanın e-mail ünvanına daxil olmuş KNK-nin 24.12.2014-cü il tarixli protokoluna və Palatanın sədri cənab V.Novruzovun 02.04.2015-ci il tarixli dərkənar-göstərişinə əsasən,

Sədrin müşaviri F.Qarayev tərəfindən bu məsələ Palata Şurasının 14.04.2015-ci il tarixli 261-ci İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

2015-ci il 14 aprel tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 261-ci iclası keçirilmişdir. Bunun üçün əvvəlcədən məruzəçilər və rəyçilər tərəfindən hazırlanmış müvafiq qərar layihələri və onlara əlavə edilmiş materiallar toplanmış və Şura iclası üçün hazırlanmışdır. 261-ci Şura İclasında aşağıdakı məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabatın müzakirəsi barədə.

Məruzəçi: Auditorlar Palatası Aparatının rəhbəri – Qəşəm Bayramov.

2. Auditorlar Palatasının 2014-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması və onun auditinin aparılması barədə.

Məruzəçi: Maliyyə və təsərrüfat idarəsinin rəisi – Vəli Rəhimov.

3. Keyfiyyətə nəzarəti həyata keçirən mütəxəssislərin və Keyfiyyətə nəzarət komitəsinin üzvlərinin maddi həvəsləndirilməsi barədə.

Məruzəçi: Auditorlar Palatası Şurasının Keyfiyyətə nəzarət komitəsinin sədri – İslam Bayramov.

4. Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət komitəsinin 28 dekabr 2014-cü il tarixli iclas protokolunun müzakirəsi barədə.

Məruzəçi: Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi – Maarif Abbasov;

Rəyçi: Keyfiyyətə nəzarət komitəsinin sədri – İslam Bayramov.

5. “Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları” haqqında.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov;

Rəyçi: Maliyyə və təsərrüfat idarəsinin rəisi – Vəli Rəhimov.

6. 2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının hazırlanması barədə.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov;

Rəyçi: Beynəlxalq standartlar üzrə komitənin sədri – Namiq Abbaslı.

7. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2014-cü il 27 avqust tarixli 253/1 saylı qərarının icrası və 2014-cü il üzrə üzvlük haqqı ödənişinin vəziyyəti barədə.

Məruzəçi: Maliyyə və təsərrüfat idarəsinin rəisi – V.Rəhimov.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 01.04.2015-ci il tarixli dərkənar-göstərişinə və 109 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən R.Cəfərlidən daxil olmuş "Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatlara dair hazırlanmış icmal" 04.05.2015-ci il tarixində keçiriləcək Palata Şurasının 262-ci İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 10.04.2015-ci il tarixli müvafiq göstərişinə və 130 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən S.Gülməmmədovdan daxil olmuş "Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətlərinin araşdırılmasına dair" təhriri məruzə Palata Şurasının 04.05.2015-ci il tarixli 262-ci İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

2015-ci il 04 may tarixində Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 262-ci iclası keçirilmişdir. Şura İclasında aşağıdakı məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illik yubileyinin keçirilməsi barədə.

Məruzəçi: Auditorlar Palatasının sədri Vahid Novruzov, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov.

2. Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatlara dair hazırlanmış icmal barədə.

Məruzəçi: Analitik informasiya və təhlil şöbəsinin müdiri – Rövşən Cəfərli;

Rəyçi: Sədrin elmi-metodik məsələlər üzrə müşaviri – Nəcəf Talıbov.

3. Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatların təhlili və tövsiyələrin hazırlanması barədə.

Məruzəçilər: Sədrin elmi-metodik məsələlər üzrə müşaviri – Nəcəf Talıbov və Analitik informasiya və təhlil şöbəsinin müdiri – Rövşən Cəfərli.

4. Təsərrüfat subyektlərində 2014-cü ildə aparılmış auditlər barədə vahid məlumatların reyestrinin hazırlanması barədə.

Məruzəçilər: Analitik informasiya və təhlil şöbəsinin müdiri – Rövşən Cəfərli və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri – Nəcəf Talıbov.

5. Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətlərinin araşdırılmasına dair.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov.

6. Azərbaycan Respublikası Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna (IFIAR) üzvlüyə qəbul edilməsi barədə.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 07.05.2015-ci il tarixli dərkənar-göstərişinə və 157 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən Q.Bayramov, S.Gülməmmədov və E.İbrahimov tərəfindən hazırlanmış "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında" Əsasnamə Palata Şurasının 26.05.2015-ci il tarixli 263-cü İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 13.05.2015-ci il tarixli dərkənar-göstərişinə və 164 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən S.Gülməmmədovdan daxil olmuş "Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyaların qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə" hazırlanmış sənəd Palata Şurasının 26.05.2015-ci il

tarixli 263-cü İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 19.05.2015-ci il tarixli dərkənar-göstərişinə və 171 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən S.Gülməmmədovdan daxil olmuş "Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətlərinin araşdırılması barədə" layihə yenidən işlənib hazırlanmış və Palata Şurasının 26.05.2015-ci il tarixli 263-cü növbəti İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

2015-ci il 26 may tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 263-cü iclası keçirilmişdir. Şura İclasında aşağıdakı məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir:

1. "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında" Əsasnamə barədə.

Məruzəçilər: Aparatın rəhbəri – Qəşəm Bayramov, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov, Auditorlar Palatasının Şurası yanında Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri, sərbəst auditor – E.İbrahimov;

Rəyçilər: Auditorlar Palatasının Şurası yanında Üzvlük məsələləri üzrə komitənin sədri, sərbəst auditor – İbiş Əliyev, Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə komitənin sədri, sərbəst auditor – Avtandil Əliyev.

2. 2014-cü il üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyələri barədə.

Məruzəçi: Sədrin elmi-metodik məsələlər üzrə müşaviri – Nəcəf Talıbov.

3. Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətləri barədə.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov;

Rəyçi: Auditorlar Palatasının Şurası yanında Mübahisə və Apellyasiyalar üzrə komitənin sədri, sərbəst auditor – Adıgözəl Musayev.

4. Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatlara dair hazırlanmış icmal barədə.

Məruzəçi: Analitik informasiya və təhlil şöbəsinin müdiri – Rövşən Cəfərli;

Rəyçi: Sərbəst auditor – Nazim Axundov.

5. Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən 2014-cü ilin yekunu üzrə təqdim edilmiş illik hesabatların təhlili və tövsiyələrin hazırlanması barədə.

Məruzəçilər: Sədrin elmi-metodik məsələlər üzrə müşaviri – Nəcəf Talıbov, Analitik informasiya və təhlil şöbəsinin müdiri – Rövşən Cəfərli;

Rəyçi: Sərbəst auditor – Nazim Axundov.

6. Azərbaycan Respublikasının ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyaların qüvvədəolma müddətinin başa çatması ilə əlaqədar keçiriləcək imtahan barədə.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi – Səbuhi Gülməmmədov.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 25.05.2015-ci il tarixli dərkənar-göstərişinə və 181 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən S.Gülməmmədovdan daxil olmuş "Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında" Əsasnamə Palata Şurasının 22.06.2015-ci il tarixli 264 saylı növbəti İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

Auditorlar Palatasının sədri cənab V.Novruzovun 04.06.2015-ci il tarixli dərkənar-göstərişinə və 187 saylı xidməti məktuba əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən İ.Bayramov və M.Abbasovdan daxil olmuş "Auditor xidmətinin keyfiyyətinə nəzarətin müasir vəziyyəti və onun yaxşılaşdırılması üzrə təxirəsalınmaz tədbirlər haqqında" 2015-ci il 22 yanvar tarixli 260/2 saylı qərarının icrası ilə əlaqədar görülmüş işlərə dair arayış Palata Şurasının 22.06.2015-ci il tarixli 264 saylı növbəti İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

2015-ci il 22 iyun tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 264-cü iclası keçirilmişdir. Şura İclasında aşağıdakı məsələlər müzakirə edilmiş və müvafiq qərarlar qəbul edilmişdir:

1. Auditor fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanun layihəsinin müzakirəsi barədə.

Məruzəçi: Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov.

2. Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnamə barədə.

Məruzəçi: Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin müdiri – S.Gülməmmədov.

3. Auditor xidmətinin keyfiyyətinə nəzarətin beynəlxalq təcrübə əsasında həyata keçirilməsi barədə.

Məruzəçi: Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi – M. Abbasov.

203 saylı xidməti məktuba və Sədrin 29.06.2015-ci il tarixli müvafiq göstərişinə əsasən, Sədrin müşaviri F.Qarayev tərəfindən S.Gülməmmədovdan daxil olmuş Palata Şurasının 26.05.2015-ci il tarixli 263/1 saylı “Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında” Əsasnamə barədə qərarının 2-ci bəndinə əsasən, “Fəxri auditor” döş nişanı və onun vəsiqəsinin və “Fəxri fərman”ın eskiz layihəsi Palata Şurasının 24.07.2015-ci il tarixli 265 saylı növbəti İclasında müzakirə edilməsi üçün hazırlanmış və Şuranın gündəliyinə daxil edilmişdir.

Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsindən Azərbaycan Respublikası Auditorlar Palatasına daxil olmuş 2015-ci il 16 aprel tarixli 03/07-641 saylı məktubda “Sumqayıt Superfosfat” ASC-nin 2014-cü ilin hesabatının Respublika Maliyyə Nazirliyinin 1995-ci ildə təsdiq etdiyi hesabat formalarında tərtib etdiyi və buna “Audit Servis” MMC tərəfindən köhnə qaydada auditor rəyinin verilməsi qeyd edilmişdir. Həmçinin bildirilir ki, auditorlar tərəfindən audit keçirilərkən belə hallar aşkar edilmir və müsbət auditor rəyi verilir. Bu məsələ Palata rəhbərliyinin yanında müzakirə edilmiş və 21 may 2015-ci il tarixli protokol tərtib edilmiş və sənədlərin Keyfiyyətə nəzarət Komitəsinə göndərilməsi və onların qərarı ilə birlikdə müzakirəyə çıxarılması qərara alınmışdır. 2015-ci il 11 iyun tarixdə həmin məsələ yenidən müzakirəyə çıxarılmış, lakin "Audit Servis" MMC-nin direktoru-auditoru Oleq Abdullayev və Keyfiyyətə nəzarət Komitəsinin sədri İslam Bayramov iştirak etmədikləri üçün 3 həftə ərzində Keyfiyyətə nəzarət Komitəsinin tərəfindən öz rəyini rəsmi olaraq təqdim olunması və Palatanın Şurasında müzakirə

olunması qərara alınmışdır. Palata Şurasının qərar layihəsi tərtib olunmuş və rəhbərliyə təqdim edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasına Fizuli rayonu Böyük Bəhmənli Bələdiyyəsinin sədri Elşən Mətləb oğlu Məmmədov tərəfindən sərbəst auditor Yasin Rza oğlu Şirinovun Bələdiyyədə keyfiyyətsiz audit aparması ilə bağlı müraciət daxil olmuş, bununla əlaqədar olaraq Keyfiyyətə nəzarət və hüquqi təminat İdarəsi tərəfindən araşdırma aparılaraq arayış tərtib edilmiş və Palata Şurası yanında Keyfiyyətə nəzarət Komitəsinin rəyi alınmışdır. Tərtib olunmuş arayışda və rəydə auditin keyfiyyətsiz aparılması qənaətinə gəlinmişdir. Bu məsələ Palata rəhbərliyinin yanında müzakirə edilmiş və 2015-ci il 21 may tarixli protokol tərtib edilmiş və qərara alınmışdır ki, sənədlərin Keyfiyyətə nəzarət Komitəsinə göndərilməsi və onların qərarı ilə birlikdə müzakirəyə çıxarılması qərara alınmışdır. 2015-ci il 11 iyun tarixdə həmin məsələ yenidən müzakirəyə çıxarılmış, lakin sərbəst auditor Yasin Şirinov və Keyfiyyətə nəzarət Komitəsinin sədri İslam Bayramov iştirak etmədikləri üçün üçün 3 həftə ərzində Keyfiyyətə nəzarət Komitəsinin tərəfindən öz rəyini rəsmi olaraq təqdim olunması və Palatanın Şurasında müzakirə olunması qərara alınmışdır. Həmin arayış təqdim edildikdə Palata Şurasının qərar layihəsi tərtib olunmuş və rəhbərliyə təqdim edilmişdir.

"Auditor xidmətinin keyfiyyətinə nəzarətin müasir vəziyyəti və onun yaxşılaşdırılması üzrə tədbirlər haqqında" Auditorlar Palatası Şurasının 2015-ci il 22 iyun tarixli qərarının icrası ilə əlaqədar görülən tədbirlər barədə Keyfiyyətə nəzarət Komitəsinin sədri İslam Bayramova 3 gün ərzində arayış təqdim edilməsi üçün məktub göndərilmişdir. Həmin arayış təqdim edildikdə Palata Şurasının qərar layihəsi ilə birlikdə Şurada baxılmaq üçün rəhbərliyə təqdim ediləcəkdir.

Auditorlar Palatası Şurasının 2015-ci il 14 aprel tarixli 261/5 saylı “Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları haqqında” qərarına əsasən, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 22 yanvar tarixli 260/6 saylı “Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi qaydaları haqqında” qərarının icrasını təmin etmək məqsədilə, Auditorlar Palatası Şurasının irad və təklifləri nəzərə alınaraq Kadr hazırlığı, akkreditasiya və

beynəlxalq əlaqələr idarəsi və Auditorların ixtisasartırma komitəsinin birgə hazırladığı materiallar müzakirə edilərək Şura üzvləri tərəfindən təsdiq edimişdir.

Auditorlar Palatası Şurasının 2015-ci il 14 aprel tarixli 261/6 saylı "2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının hazırlanması barədə" qərarına uyğun olaraq, Auditorlar Palatasının 2015-2017-ci il üzrə 4.1-ci "2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının və qrafikinin hazırlanması" bəndinin icrası ilə əlaqədar, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "2015-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı" barədə layihəsi və Şura üzvlərinin təklifləri müzakirə edilərək Auditorlar Palatası Şurası tərəfindən təsdiq edilmişdir.

Auditorlar Palatası Şurasının 2015-ci il 04 may tarixli 262/1 saylı "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illik yubileyinin qeyd edilməsi barədə" qərarına uyğun olaraq, yubiley tədbirlərinin yüksək səviyyədə hazırlanmasını və vaxtında keçirilməsini təmin etmək məqsədilə Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinə iki həftə müddətində Auditorlar Palatasının 20 illik yubileyi ilə əlaqədar tədbirlər planını hazırlayıb təqdim etmələri tapşırılmışdır.

Auditorlar Palatası Şurasının 2015-ci il 4 may tarixli 262/6 saylı "Azərbaycan Respublikası Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna (İFİAR) üzvlüyə qəbul edilməsi barədə" qərarına uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatımızın hər bir sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində həyata keçirdiyi tədbirlərin icrası ilə əlaqədar, Azərbaycan Respublikası Auditorlar Palatasının Müstəqil Audit Tənzimləyicilərinin Beynəlxalq Forumuna üzvlüyə qəbul edilməsi barədə Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin məlumatını müzakirə edərək, İFİAR üzvlüyünə qəbul edilməsi məqsədəuyğun hesab edilmişdir.

Auditorlar Palatası Şurasının 2015-ci il 26 may tarixli 263/1 saylı "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında Əsasnamə barədə" qərarına uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2015-ci il 07 aprel tarixli 1/16 saylı "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında"

Əsasnamənin hazırlanması barədə əmrinə uyğun olaraq, Azərbaycan Respublikasında auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsində xüsusi xidmətləri olan, Auditorlar Palatasının ictimai həyatında və fəaliyyətinin genişləndirilməsində, beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynayan şəxslərin mənəvi həvəsləndirilməsi işinin təkmilləşdirilməsi məqsədilə, Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramov, Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov və Sərbəst auditor, Qanunvericilik və hüquqi məsələlər üzrə komitənin sədri E.İbrahimov tərəfindən hazırlanmış Əsasnamənin layihəsi müzakirə edilərək, Auditorlar Palatasının Şurası tərəfindən təsdiq edilmişdir.

Auditorlar Palatası Şurasının 2015-ci il 26 may tarixli 263/3 saylı "Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətlərinin araşdırılması barədə" qərarına uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 3.10-cu "Məcburi audit subyektləri olan auditor təşkilatlarının auditdən keçmə və auditorların peşə məsuliyyətlərinin icbari sığortalanması vəziyyətlərinin araşdırılması" bəndinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 333-IIIQ saylı "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa, Auditorlar Palatası Şurasının 2009-cu il 26 yanvar tarixli 197/5 saylı "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının (2007-2011-ci illər)" 48-ci "Qanunvericiliyə uyğun olaraq məcburi auditin obyekti olan təsərrüfat subyektlərinin auditdən yayınma hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi" yarımbəndinin, o cümlədən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü "Məhdud məsuliyyətli cəmiyyət illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun iştirakçılarına bağlı olmayan peşəkar auditor cəlb etməlidir (kənar audit)...." maddəsinin tələblərinə məhdud məsuliyyətli cəmiyyət təşkilati-hüquqi formasında olan auditor təşkilatları tərəfindən riayət olunmasının təmin edilməsi" barədə qərarına hazırda fəaliyyətdə olan Auditorlar

Palatasının üzvləri (auditor təşkilatları və sərbəst auditorlar) tərəfindən riayət olunması vəziyyətlərinin araşdırılması ilə bağlı Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin hazırladığı hesabatı Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla müzakirə edilərək təsdiq edilmişdir.

**"Bakı şəhər auditor təşkilatı"**-na (VÖEN 1300458561) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 23.02.2012-ci il tarixli, AT/003 qeydiyyat saylı, 072722 №-li lisenziyasının fəaliyyəti Auditorlar Palatası Şurasının 14.04.2015-ci il tarixli 261/7 saylı "Azərbaycan Respublikası Auditorlar Palatası üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi" barədə qərarı ilə dayandırılmışdır. Bu barədə müvafiq orqanlara 23.04.2015-ci il tarixli məktubla məlumat verilmişdir. Həmçinin təşkilatın direktoruna məktub ünvanlanmışdır. **"Best Audit" MMC**-yə (VÖEN 2002113951) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş auditor fəaliyyətini həyata keçirməyə icazə verən 12.10.2011-ci il tarixli, AT/092 qeydiyyat saylı, 047518 №-li lisenziyasının fəaliyyəti Auditorlar Palatası Şurasının 14.04.2015-ci il tarixli 261/7 saylı "Azərbaycan Respublikası Auditorlar Palatası üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi" barədə qərarı ilə dayandırılmışdır. Bu barədə müvafiq orqanlara 23.04.2015-ci il tarixli məktubla məlumat verilmişdir. Həmçinin təşkilatın direktoruna məktub ünvanlanmışdır.

- Auditorlar Palatası Şurasının 14 aprel 2015-ci il tarixli, 261/1 №li Qərarı (Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabat barədə) nəzərə alınmışdır.
- Auditorlar Palatası Şurasının 14 aprel 2015-ci il tarixli, 261/2 №li Qərarı (Auditorlar Palatasının 2014-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair illik hesabat barədə) nəzərə alınmışdır.
- Auditorlar Palatası Şurasının 14 aprel 2015-ci il tarixli, 261/7 №li Qərarı (Auditorlar Palatasının üzvləri tərəfindən üzvlük haqqının ödənilməsi barədə) nəzərə alınmışdır.

## IV. Palata rəhbərliyinin əmr və sərəncamlarının hesabat dövründə icrası

Sədrin müşaviri F.Qarayev tərəfindən 2015-ci ilin II rübü ərzində Palata sədrinin "2015-ci ildə auditor adı almaq üçün imtahanların keçirilməsi haqqında" 02.04.2015-ci il tarixli 14 saylı, "M.H.Ümbətovun 85 illik yubileyinin qeyd edilməsi barədə" 21.04.2015-ci il tarixli 17 saylı, Yeni fəaliyyətə başlayan auditor təşkilatları – "Smart Audit" MMC-yə, "CROCUS AUDİT" MMC-yə və Sərbəst auditor - Həsənov Ülvi Dilqəm oğluna əməli köməkliyin göstərilməsi barədə 23.04.2015-ci il tarixli 18 saylı, "Faşizm Üzərində Qələbə Günü" münasibətilə bir qrup əməkdaşların mükafatlandırılması barədə 08.05.2015-ci il tarixli 19 saylı, "Mühasibat uçotu kursunun tədris proqramı barədə" 13.05.2015-ci il tarixli 20 saylı əmrləri və Palata sədrinin "Auditorlar Palatasında çalışan işçilərin iş vaxtı rejiminin pilləli şəkildə təşkil edilməsi barədə" 01.04.2015-ci il tarixli 1/14 saylı, "Azərbaycan Respublikası Auditorlar Palatasında çağrı mərkəzinin yaradılması barədə" 06.04.2015-ci il tarixli 1/15 saylı, "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında" Əsasnamənin hazırlanması barədə 07.04.2015-ci il tarixli 1/16 saylı, "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1209- IV QD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1143 nömrəli sərəncamının icrasının təmin edilməsi barədə 09.04.2015-ci il tarixli 1/17 saylı, "Auditorların (auditor təşkilatlarının) 2014-cü il üzrə reytinq səviyyəsinin müəyyən edilməsi haqqında" 08.05.2015-ci il tarixli 1/19 saylı, "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyinin qeyd edilməsi barədə" 22 iyun 2015-ci il tarixli 1/21 saylı sərəncamları hazırlanmış və icraya yönəldilərək məsul şəxslər tərəfindən icrası təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 70s saylı sərəncamına əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, 2015-ci ildə Bakı şəhərində I Avropa oyunlarının keçirilməsi ilə əlaqədar nəqliyyat vasitələrinin maneəsiz və təhlükəsiz hərəkətini təmin etmək, işçi qüvvəsinin və tamaşaçıların ictimai nəqliyyat sisteminin (metro və avtobus)

mövcud imkanlarından tam şəkildə istifadə edilməsinə şərait yaratmaq məqsədilə Palata sədrinin 2015-ci il 01 aprel tarixli 1/14 saylı sərəncamı ilə Auditorlar Palatasında çalışan işçilərin əmək funksiyalarını nəzərə almaqla iş vaxtı rejimi 2015-ci ilin 01 may tarixindən 01 iyul tarixinədək pilləli şəkildə təşkil edilmişdir. Həmin sərəncamla Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi, Auditorlar Palatasının Həmkarlar Komitəsinin sədri S.Gülməmmədova və Auditorlar Palatası Aparatının Şəxsi heyət üzrə meneceri İ.Məmmədovaya tapşırılmışdır ki, bu sərəncamdan irəli gələn təşkilati tədbirlərin həyata keçirilməsini təmin etsinlər. Sərəncamın icrası təmin olunmuşdur.

Azərbaycan Respublikası Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 9.3-cü "Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" bəndinə və Palata Şurasının 2012-ci il 18 dekabr tarixli 238/7 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə illik hesabatın və məruzənin strukturu, hazırlanması və nəşri haqqında" Təlimata uyğun olaraq İşçi qrupu tərəfindən hazırlanmış Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin yekunlarına dair hesabatı Palata sədrinin "Auditorlar Palatasının 2014-cü il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanmasında yol verilmiş nöqsanlar barədə" 2015-ci il 01 may tarixli K-28 saylı əmrinin icrasını təmin etmək məqsədilə yol verilmiş nöqsan və çatışmazlıqlar aradan qaldırılmaqla həmin hesabat yenidən işlənib hazırlanaraq baxılmaq üçün 04.05.2015-ci il tarixdə Palatanın sədri cənab V.Novruzova təqdim olunmuş və əmrin icrası təmin edilmişdir.

Auditorlar Palatası Aparatının şəxsi heyət üzrə meneceri İ.Məmmədova tərəfindən 2015-ci ilin II rübü ərzində işə qəbul, işdən azad edilmə, əmək və təhsil məzuniyyəti, analıq məzuniyyəti, xidməti ezamiyyət və s. barədə 19 əmr hazırlanmış və Palatanın sədri V.Novruzov tərəfindən imzalanmışdır.

Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri cənab Vahid Novruzovun 2015-ci il 10 aprel tarixli 16 saylı əmrinə və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yoxlamanın qeydiyyata alınmasına dair sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən KY150788172 saylı çıxarışa əsasən, Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin keyfiyyətə nəzarət şöbəsinin müdiri Yaşar

Namazəliyev tərəfindən "Zaman-Audit" MMC-nin 01.01.2013-cü il tarixdən 01.01.2015-ci il tarixədək olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyəti yoxlanılmış və yoxlamanın nəticəsinə dair Palatanın rəhbərliyinə təhriri məruzə və İdarə rəisi tərəfindən xidməti məktub təqdim edilmiş və cəmiyyətin rəhbərliyinə məktub göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatasının sədri cənab Vahid Novruzovun 2015-ci il 11 iyun tarixli 21 saylı əmrinə və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yoxlamanın qeydiyyata alınmasına dair sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən 2015-ci il 05 iyun tarixli KY150824641 saylı çıxarışa əsasən, Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin keyfiyyətə nəzarət şöbəsinin müdiri Yaşar Namazəliyev tərəfindən sərbəst auditor Şirxan Yadigar oğlu Gülməmmədovun 2013-cü il 01 iyun tarixdən 2015-ci il 01 iyun tarixədək olan dövr üzrə maliyyə-təsərrüfat fəaliyyəti yoxlanılmış və yoxlamanın nəticəsinə dair Palatanın rəhbərliyinə təhriri məruzə və İdarə rəisi tərəfindən Palatanın rəhbərliyinin yanında müzakirə olunmaq təklifi ilə xidməti məktub təqdim edilmişdir.

Auditorlar Palatası sədrinin 2015-ci il 07 aprel tarixli "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında Əsasnamənin hazırlanması barədə" sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasındakı auditin inkişafında və auditor peşəsinin nüfuzunun yüksəldilməsində və fəaliyyətinin genişləndirilməsində, beynəlxalq əlaqələrin qurulmasında mühüm rol oynayan şəxslərin mənəvi həvəsləndirilməsi işinin təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikası Auditorlar Palatasının mükafatları haqqında" Əsasnamənin hazırlanması məqsədəmüvafiq hesab edilmişdir.

Palata sədrinin 2015-ci il 23 aprel tarixli 18 saylı "Yeni fəaliyyətə başlayan auditor təşkilatları – "Smart Audit" MMC-yə, "CROCUS AUDİT" MMC-yə və sərbəst auditor – Həsənov Ülvi Dilqəm oğluna əməli köməkliyin göstərilməsi barədə" əmrinə əsasən, müvafiq tədbirlər həyata keçirilmişdir. 2015-ci il 27-29 aprel tarixlərində Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov tərəfindən əməli köməklik göstərilməsi məqsədəmüvafiq hesab edilmişdir. Əməli köməkliyin nəticəsi rəsmi şəkildə rəhbərliyə təqdim edilmişdir.

Palata sədrinin 2015-ci il 13 may tarixli 20 saylı "Mühasibat uçotu kursunun tədris proqramının təsdiq edilməsi barədə" əmrinə uyğun olaraq, Azərbaycan Respublikası

Auditorlar Palatasının 2014-cü il iş planının 4.6-cı “Mühasibat uçotu kurslarının keçirilməsi bəndinin icrasını təmin etmək məqsədilə, Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsi və ixtisasartırma Komitəsi tərəfindən hazırlanmış “Mühasibat uçotu” kursunun tədris proqramı təsdiq edilmişdir.

Palata sədrinin 2015-ci il 22 iyun tarixli 1/21 saylı “Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyinin qeyd edilməsi barədə” sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyinin qeyd edilməsi ilə əlaqədar Tədbirlər planı təsdiq edilmişdir. İdarə tərəfindən tədbirlər planını icraya məsul şəxslərin hər birinə göndərilməsi təmin edilmişdir.

Palata sədrinin 2015-ci il 29 iyun tarixli K-40 saylı “İstehsalat təcrübəsi barədə” əmrinə uyğun olaraq, Azərbaycan Dövlət İqtisad Universitetinin “Mühasibat uçotu və audit” ixtisasının III kurs 442-ci qrup 5 nəfər tələbəsinə 2015-ci il 29 iyun tarixindən 2015-ci il 26 iyul tarixinədək istehsalat təcrübəsi keçmələrinə icazə verilmişdir. Hal-hazırda bu tələbələrin təcrübə keçmələrinə idarə tərəfindən nəzarət olunmaqdadır.

İdarənin əməkdaşları 2015-ci ilin II rübü ərzində planda nəzərdə tutulmuş və plandankənar işləri vaxtında və keyfiyyətlə yerinə yetirmişlər.

- Palata Sədrinin 2015-ci il 06 aprel tarixli 1/15 №li sərəncamı (Auditorlar palatasında çağrı mərkəzinin yaradılması barədə) ilə əlaqədar rəy hazırlanaraq rəhbərliyə təqdim edilmişdir.
- Palata Sədrinin 2015-ci il 21 aprel 17 №li əmri (Maliyyə və təsərrüfat idarəsinin təsərrüfat bölməsinin gözətçisi Musa Ümbətova 85 illik yubileyi ilə əlaqədar mükafatın verilməsi barədə) icra olunmuşdur.
- Palata Sədrinin 2015-ci il 13 may tarixli 20 №li əmri (“Mühasibat uçotu” kursunun müvafiq xərclər smetasında nəzərdə tutulmuş məbləğin ödənişinə nəzarət) nəzərə alınmışdır.

Auditorlar Palatası sədrinin 2015-ci il 01 aprel tarixli 1/14 saylı “Auditorlar Palatasında çalışan işçilərin iş vaxtı rejiminin pilləli şəkildə təşkil edilməsi barədə” müvafiq sərəncamına əsasən, şöbənin əməkdaşlarının iş vaxtı rejimi 2015-ci il 01 may tarixində 01 iyul tarixinədək pilləli şəkildə təşkil edilmişdir.

Şöbənin əməkdaşları 2015-ci ilin II rübü ərzində planda nəzərdə tutulmuş işləri vaxtında və keyfiyyətlə yerinə yetirmişlər.

**Auditorlar Palatasının 2015-ci ilin II rübü üzrə iş fəaliyyətinin yekununa dair hazırlanmış hesabatın təhlili nəticəsində aşağıdakı tövsiyələr verilir:**

1. “Auditor fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin 2015-ci ilin 26 yanvar tarixində Auditorlar Palatasında keçirilən “dəyirmi masa”da müzakirəsi zamanı iştirak edən qurumların nümayəndələrinin təklifləri nəzərə alınmaqla yenidən işlənməsi və son layihənin həmin qurumlara göndərilməsi təmin edilsin;
2. Auditor xidməti sahəsində qadağalar və sanksiyalar sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi təmin edilsin;
3. Auditorlar Palatasının fəaliyyətinə nəzarət sisteminin işlənib hazırlanması təmin edilsin;
4. Xarici ölkələrin mühasibat və audit qurumları ilə əməkdaşlıq sazişlərinin bağlanması ilə əlaqədar Mühasiblər Şəbəkələrinin və Assosiasiyalarının Avropa Qrupu (EGİAN) və Hindistandan Andlı Mühasiblər İnstitutundan müsbət cavab alınması təmin edilsin;
5. Məcburi auditdən yayınmaya görə inzibati məsuliyyətin tətbiqi ilə bağlı tədbirlərin görülməsinə dair təkliflər və müvafiq normativ sənədlərin layihələrinin hazırlansın təmin edilsin;
6. Auditor xidmətinin keyfiyyətinə nəzarətin beynəlxalq təcrübə əsasında həyata keçirilməsi təmin edilsin;
7. Milli auditor təşkilatları üçün nümunəvi firmadaxili audit standartlarının hazırlanması məqsədilə bu sahədə xarici ölkələrin təcrübəsinə dair materialların toplanması, öyrənilməsi və tətbiqi işləri təşkil edilsin;
8. IFAC-ın 1 №li Üzvlüyə dair Öhdəlik Tələblərinə (SMO) müvafiq olaraq təsdiq edilmiş plana əsasən auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə yoxlamaların aparılması təmin edilsin;

9. Auditin keyfiyyətinə ictimai nəzarətin təşkili məqsədilə xarici ölkələrin audit qurumlarının təcrübəsi öyrənilsin və tətbiq edilsin;

10. Müvafiq ali təhsil müəssisələrində gənc auditor kadrlarının hazırlanması işinə dəstək və peşənin təbliği təmin edilsin;

11. IFAC-ın Peşəkar Mühasiblərin Etika Məcəlləsinin, Beynəlxalq audit standartlarının 2013-cü il üzrə versiyasının və "Daxili audit" kitabının yeni nəşrləri təmin edilsin;

12. Sərbəst auditorların və auditor təşkilatlarının hesabatlarına dair 2014-cü il üzrə informasiya bazasının hazırlanması məqsədilə Azərbaycan Respublikasının Vergilər nazirliyindən Azərbaycanda fəaliyyət göstərən hüquqi şəxslər barədə məlumatlar əldə edilsin;

13. Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi üzrə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi üzrə təkliflər paketi təqdim edilsin;

14. Haqsız rəqabət hallarının aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədilə təkliflərin və tövsiyələrin verilməsi təmin edilsin;

15. Auditorlar Palatası üzvlərinə məsləhət xidmətləri və hüquqi yardımın göstərilməsi üzrə normativ sənədlərin hazırlanmasına dair təkliflərin verilməsi təmin edilsin;

16. Auditorlar Palatasının üzvləri üçün üzvlük haqqının hesablanması və ödənilməsinə dair təkliflər verilməklə yeni təlimatın hazırlanması işləri təşkil edilsin;

17. Palatanın struktur bölmələri tərəfindən Palata Şurasının qərarlarında, Palata sədrinin əmr və sərəncamlarında, müvafiq plan-proqramlarda nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

**Aparatın rəhbəri** **Q.Bayramov**

**Sədrin Elmi-metodik**
**məsələlər üzrə müşaviri** **N.Talıbov**

**Sədrin müşaviri** **F.Qarayev**

**Aparatın koordinatoru** **A.Seyidəliyeva**

10.07.2015-ci il